RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 261 (8854) CÜMƏ AXŞAMI, 2 dekabr 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





## Soçi görüşü və Aşqabad zirvəsi Müzəffər Komandan İlham Əliyevin Ermənistana növbəti zərbəsi kimi tarixə düşdü

# Qürurlu və mətin LİDER

Ötən həftə ölkənin ictimai-siyasi həyatında çox mühüm hadisələr yaşandı. Öncə noyabrın 26-da Prezident İlham Əliyev Soçidə Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdü. Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə keçirilən görüşdə çox maraqlı məsələlər müzakirə edildi və demək olar ki, bütün proseslər, imzalanan yeni sənəd Azərbaycanın maraqları çərçivəsində həll olundu.

Üçtərəfli danışıqlar zamanı kimin qalib, kimin isə məğlub olduğu açıq-aşkar hiss olundu. İlham Əliyev təmkinli və müzəffər, Nikol Paşinyan isə içində faciəvi emosiyaları gizlədən biri kimi göründü. Rusiyaya 44 günlük Vətən müharibəsinin qalib Sərkərdəsi kimi yollanan İlham Əliyev bu görüşdən də məğrur lider kimi ayrıldı.

Noyabrın 28-də isə İlham Əliyev yüksək əhvali-ruhiyyədə Türkmənistanda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Zirvə Görüşünə qatıldı. Azərbaycanın xilaskar lideri həm toplantıdakı çıxışı, həm də üzv dövlətlərin liderləri ilə təkbətək görüşündə bir daha regionda yaranmış yeni reallıqları qiymətləndirdi və dost-qardaş ölkələri Qarabağ və Şərqi Zəngəzura investisiya yatırmağa, birgə işbirliyinə dəvət etdi.

### İƏT-in üzvlərinin yeni işbirliyi yaxın gələcəkdə böyük uğurlar vəd edir

Zirvə görüşündə Azərbaycanın regionda və dünyada artan rolu qeyd edildi və ölkəmizin tarixi Zəfərinin yaratdığı reallıqların böyük perspektivlər vəd etdiyi vurğulandı. Bütün bunlar isə İlham Əliyevin müstəqil, qətiyyətli siyasətinin gələcəyə hesablandığını bir daha təsdiqlədi.

Ümumiyyətlə, İƏT-in Zirvə Görüşü maraqlı məqamlarla yadda qaldı. Siyasi ekspertlərin bu toplantıda müzakirə edilən məsələlərlə bağlı səsləndirdiyi fikirlərə nəzər yetirsək, görərik ki, həm Azərbaycan Prezidentinin diplomatik gedişləri yüksək qiymətləndirilir, həm də İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin yeni işbirliyi yaxın gələcəkdə böyük uğurlar vəd edir.

Amerikalı ekspert Piter Teys deyir ki, İƏT-in Zirvə Görüşündə qəbul edilən Aşqabad Bəyannaməsi İlham Əliyevin görkəmli liderliyinin simvoludur. Onun fikrincə, Zirvə görüşü Avrasiya qitəsində, xüsusilə sənaye və iqtisadi inkişaf sahəsində əsas prioritetləri müəyyən edən böyük qlobal tədbirdir: "İƏT-ə üzv dövlətlərin bu münasibətlə təsdiqlədiyi və İkinci Qarabağ müharibəsində Azərbaycanı şanlı qələbə münasibətilə təbrik edən bəyannamə Ermənistanı məğlubiyyətini etiraf etməyə və Azərbaycanla əməkdaşlığın yeni səhifəsini açmağa çağırışdır. İƏT-in Aşqabad Bəyannaməsi Prezident İlham Əliyevin görkəmli liderliyinin simvoludur".

Onun sözlərinə görə, Türkmənistan və İƏT-ə digər üzv dövlətlər Zəngəzur dəhlizindən onları Türkiyə, Qara dəniz regionu və Avropa bazarları ilə birbaşa birləşdirəcək körpü kimi istifadə etməklə Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsini səbirsizliklə gözləyirlər. Ermənistan isə İƏT-ə üzv dövlətlərlə iqtisadi tərəfdaşlığı qəbul etmək üçün addım atmalı və xaricdə imicini korlayan kölgə iqtisadiyyatından əl çəkməlidir.

*Ardı 3-cü səh.*



## Nursultan Nazarbayevlə Heydər Əliyev arasındakı dostluq əlaqələri ikitərəfli münasibətlərin möhkəm təməlini qoyub

Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Nazarbayevə telefonla zəng edib.

Dövlətimizin başçısı 30 il bundan əvvəl Qazaxıstanın ilk Prezidenti seçilən Nursultan Nazarbayevi Qazaxıstan Respublikasının Birinci Prezidenti Günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb. Prezident İlham Əliyev Nursultan Nazarbayevin müasir Qazaxıstan dövlətçiliyinin əsasını qoyduğunu vurğulayaraq qeyd edib ki, məhz onun müdrik siyasəti və yorulmaz fəaliyyəti nəticəsində ölkə müstəqillik qazandığı ilk günlərdən tarixi sınaqlardan çıxaraq bütün sahələrdə sürətli inkişaf yolu keçib, beynəlxalq aləmdə layiqli yerini tutub. Dövlətimizin başçısı Nursultan Nazarbayevlə xalqımızın Ümummilli Lideri Heydər Əliyev arasında dostluq əlaqələrinin ikitərəfli münasibətlərimizin möhkəm təməlini qoyduğunu vurğulayıb.

Təbrikə və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Nursultan Nazarbayev Ümummilli Lider Heydər Əliyevlə dostluğunu ehtiramla yad edərək qeyd edib ki, Ulu Öndərin müdrik və uzaqgörən siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu siyasət Azərbaycana bütün sahələrdə böyük nailiyyətlər qazandırıb. Nursultan Nazarbayev Vətən müharibəsində Azərbaycanın Qələbəsinin önəmini qeyd edib.

Prezident İlham Əliyev və Nursultan Nazarbayev ölkələrimiz, xalqlarımız arasında dostluq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə ediblər.

Telefon söhbəti zamanı Nursultan Nazarbayev helikopter qəzası nəticəsində hərbi qulluqçularımızın həlak olması ilə əlaqədar Prezident İlham Əliyevə başsağlığı verib.

Azərbaycan Prezidenti başsağlığına görə minnətdarlığını bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Toivo Klaar Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Şarl Mişelin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa İttifaqı Şurasının Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri, Cənubi Qafqazda əməkdaşlıq perspektivləri, postmünaqişə vəziyyəti və Ermənistan-Azərbaycan sərhədində noyabr ayında baş vermiş gərginliklə bağlı məsələlər müzakirə edildi.

Söhbət zamanı həmçinin bu ay Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığı Sammitinin gündəliyinə dair fikir mübadiləsi aparıldı.

Toivo Klaar helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verdi. Prezident İlham Əliyev başsağlığına görə təşəkkür etdi.



## Şəhid olan hərbi qulluqçularla vida mərasimi keçirilib



*Bax: səh. 2*

# Şəhid olan hərbi qulluqçularla vida mərasimi keçirilib





Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçularla dekabrın 1-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, vida mərasimində DSX rəisi general-polkovnik Elçin Quliyev, hərbi prokuror Xanlar Vəliyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, digər rəsmi şəxslər, şəhidlərin yaxınları, müxtəlif qurumların və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Vida mərasimi şəhid hərbi qulluqçuların cənazələrinin zala gətirilməsi ilə başlayıb.

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasim iştirakçılarına şəhid hərbi qulluqçuların xidməti fəaliyyətləri barədə ətraflı məlumat verilib.

Dövlət Sərhəd Xidmətinin Maddi-texniki təminat idarəsinin rəisi general-mayor Faiq Məmmədov çıxış edərək şəhidlərin ailələrinə bir daha başsağlığı verib. Bildirilib ki, qəza nəticəsində həlak olan hərbi qulluqçular daim nümunəvi xidmətləri ilə seçiliblər. Onların əksəriyyəti Vətən müharibəsi zamanı böyük fədakarlıqlar göstəriblər. Azərbaycan xalqı qəhrəman oğullarının xatirəsini daim yaşadacaq.

DSX rəisinin müavini general-leytenant İlham Mehdiyev helikopterin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçuların daim nümunəvi xidmətləri ilə seçildiklərini bildirib. Ən böyük təsəllinin onların şəhidlik zirvəsinə ucalmaları olduğunu deyən İ.Mehdiyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının, o cümlədən helikopter qəzası nəticəsində şəhid olan hərbçilərin Vətən müharibəsində qəhrəmanlıq və fədakarlıq nümunələri göstərdiklərini vurğulayıb. Xidmət rəisinin müavini onların şərəfli xidmət yolunun və vətənpərvərliyinin hər bir gənc üçün nümunə olduğunu, xatirələrinin daim qəlblərdə yaşayacağını bildirib: "Əlbəttə, valideynlərin də kədərini başa düşürük. Yeganə təsəllimiz odur ki, silahdaşlarımız şəhidlik zirvəsinə yüksəlməklə bütün Azərbaycan xalqının övladlarına çevriliblər. Bu gün dəfn mərasimini keçirdiyimiz şəhidlərimiz Vətən müharibəsində də vəzifələrinin öhdəsindən layiqincə gələrək torpaqlarımızın işğaldan azad olunmasına öz töhfələrini veriblər. Onların şərəfli xidmət yolu hər bir sərhədçi üçün örnək olacaq. Əziz valideynlər, siz hər bir sərhədçinin timsalında minlərlə oğul, qardaş qazanmısınız".

Şəhid kapitan Xəyyam Əliyevin atası Əlixan Əliyev oğlunun şəhidlik zirvəsinə ucalması ilə fəxr etdiyini bildirib, şəhidlərimizin xatirəsinin daim yaşayacağını deyib.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev helikopter qəzasında hərbi qulluqçularımızın həlak olmasının ölkə ictimaiyyətini dərindən sarsıtdığını bildirib. Şəhidlik zirvəsinə ucalan hərbi qulluqçuların Vətən müharibəsinin iştirakçıları olduqlarını deyən xidmət rəisi onların qəhrəmanlıqlarının, şərəfli xidmət yolunun daim yaşayacağını vurğulayaraq qeyd edib: "Biz silahdaşlarımızı itirmişik. Onların hər biri şəhidlik zirvəsinə ucalaraq övladlarının başını uca etdilər. Vətən sağ olsun. Şəhid zabitlərimizin, əməkdaşlarımızın valideynlərinə, yaxınlarına, əzizlərinə, bacı-qardaşlarına, övladlarına Dövlət Sərhəd Xidmətinin bütün rəhbər heyəti və rəhbərliyi adından başsağlığı verirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Əmin ola bilərsiniz ki, hər bir Azərbaycan vətəndaşı, sərhədçisi şəhidlərimizin xatirəsini daim qəlbində yaşadacaq. Onların Vətənə xidmətdə göstərdikləri qəhrəmanlıqlar yaşadılaraq gələcək nəsillərə çatdırılacaq. Şəhidlərimizin valideynləri qarşısında baş əyirəm".

General-polkovnik Elçin Quliyev şəhid hərbi qulluqçuların ailə üzvlərinə başsağlığı verərək vətənpərvər oğullar böyütdükləri üçün onlara minnətdarlıq edib və səbir diləyib.

Vida mərasimindən sonra şəhid hərbi qulluqçuların cənazələri son mənzilə yola salınmaq üçün İkinci Şəhidlər xiyabanına aparılıb.

Xatırladaq ki, noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) "Mİ-17" tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində 14 hərbi qulluqçumuz həlak olub, 2 hərbi qulluqçu yaralanıb. Hadisə ilə əlaqədar Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 352.2-ci (uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ehtiyatsızlığından iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) və digər maddələri ilə cinayət işi başlanıb, aidiyyəti qurumların nümayəndələrindən ibarət istintaq qrupu yaradılıb.

# DSX-nin hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçular son mənzilə yola salınıb





Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçular dekabrın 1-də İkinci Şəhidlər xiyabanında son mənzilə yola salınıblar.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində DSX rəisi general-polkovnik Elçin Quliyev, Milli Məclis Sədrinin müavini Adil Əliyev, müdafiə sənayesi naziri, Azərbaycanın Milli Qəhrəmanı Mədət Quliyev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, digər rəsmi şəxslər, şəhidlərin yaxınları və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin xatirəsinə cənazə namazı qılınıb, onların ruhuna dualar oxunub.

Sonra şəhidlərimiz son mənzilə yola salınıblar.

Şəhidlərin tabutları üzərinə salınan dövlət bayrağı onların ailələrinə təqdim edilib.

Həlak olan hərbi qulluqçularımızın xatirəsinə yaylım atəşi açılıb.

Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qeyd edək ki, həlak olan hərbi qulluqçulardan üçü ailələrinin istəyi ilə doğulduqları ərazidə torpağa tapşırılıb. Polkovnik Füzuli Cavadov Zirə, kapitan Xəyyam Əliyev Əmircan qəsəbələrində, baş leytenant Fərid Nağıyev isə Beyləqan rayonunda dəfn ediliblər.

Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) "Mİ-17" tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində 14 hərbi qulluqçumuz həlak olub, 2 hərbi qulluqçu yaralanıb. Hadisə ilə əlaqədar Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 352.2-ci (uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ehtiyatsızlığından iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) və digər maddələri ilə cinayət işi başlanıb, aidiyyəti qurumların nümayəndələrindən ibarət istintaq qrupu yaradılıb.

## *Kamran ƏLİYEV:* "Bəzi şəxslər helikopterin qəzaya uğraması hadisəsindən siyasi məqsədləri üçün sui-istifadə etməyə cəhd göstərirlər"

Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) "Mİ-17" tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində həlak olan hərbçilərimizin ailələrinə, yaxınlarına öz adımdan və Baş Prokurorluğun kollektivi adından başsağlığı verirəm, xəsarət alanlara şəfa diləyirəm.

Bu barədə Kiyevdə səfərdə olan Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev AZƏRTAC-a açıqlamasında bildirib.

Kamran Əliyev deyib ki, bu faktla bağlı artıq cinayət işi başlanıb. Dövlət başçısı İlham Əliyevin tapşırığı əsasında cinayət işi tam və hərtərəfli araşdırılacaq, faciəvi hadisənin bütün səbəb və şəraiti istintaq zamanı öyrəniləcək. İstintaqın gedişi barədə Azərbaycan ictimaiyyəti ətraflı və mütəmadi məlumatlandırılacaq.

Baş prokuror təəssüf hissi ilə qeyd edib ki, bəzi şəxslər tərəfindən bu hadisədən siyasi məqsədləri üçün sui-istifadə hallarına cəhdlər göstərilir, heç bir fakta söykənməyən əsassız şayiələr yayılır.

"Bununla bağlı bildirirəm ki, bu kimi şəxslər barədə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan ən sərt tədbirlərin görülməsi təmin ediləcək. Bu faciədən siyasi məqsədlər üçün istifadə edilməsi yolverilməzdir", - deyə baş prokuror Kamran Əliyev əlavə edib.

Xatırladaq ki, noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) "Mİ-17" tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində 14 hərbi qulluqçumuz şəhid olub, 2 hərbi qulluqçu yaralanıb. Hadisə ilə əlaqədar Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Cinayət işi üzrə Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin, eləcə də məhkəmə-tibb, məhkəmə-texniki-yanğın və məhkəmə-ballistik ekspertlərinin iştirakı ilə hadisə yerinə baxış keçirilib. Hadisə yerindən qara qutu götürülüb və hazırda onun tədqiqi aparılır. Eyni zamanda Baş Prokurorluq, Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidmətinin peşəkar əməkdaşlarından ibarət istintaq qrupu yaradılıb.

## *Polkovnik-leytenant Emil CƏFƏROV:* "Helikopter "Qaraheybət" aviasiya poliqonuna çatıb eniş etdiyi anda qəzaya uğradı"

"Qəzanın baş verdiyi gün - noyabrın 30-da məqsədimiz planlaşdırılmış praktiki-məşq uçuşlarını yerinə yetirmək idi. Bunun üçün birinci mərhələdə Səngəçal aerodromundan qalxıb "Qaraheybət" aviasiya poliqonuna enişi yerinə yetirməli idik. Yerüstü heyət, yəni uçuşların idarəedilməsi qrupu, rabitə növbətçiləri, həkimlər enişdən sonra öz yerlərini tutmalı və ardınca atışlar başlamalı idi".

Bunu Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin qəzaya uğraması nəticəsində yaralanan hərbi qulluqçu, polkovnik-leytenant Emil Cəfərov dekabrın 1-də AZƏRTAC-a müsahibəsində deyib.

Qəza anı barədə danışan zabit bildirib: Helikopter "Qaraheybət" aviasiya poliqonuna çatıb eniş etdiyi anda qəfildən yerə çırpıldı. Mən sərnişin kabinəsində olduğum üçün nə baş verdiyini tam anlamadım. Helikopterin yerə çırpılmasının təsirindən bayıra düşdüm. Bu sayədə sağ qaldım".





Bəzi sosial media istifadəçilərinin bu hadisə ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar səsləndirdiklərini vurğulayan polkovnik-leytenant Emil Cəfərov qeyd edib: "Bu hadisə ilə bağlı bütün məlumatlar olduğu kimi rəsmi qaydada ictimaiyyətə çatdırılıb. Qəza helikopterin poliqonda eniş etdiyi anda baş verib. Yəni heç bir kənar müdaxilə olmayıb".

Hadisə nəticəsində yaralanan digər hərbi qulluqçu, kapitan Ramin Ədilov da helikopterin "Qaraheybət" aviasiya poliqonunda eniş etdiyi zaman qəzaya uğradığını bildirərək deyib: "Qəza anidən baş verdi. Səngəçalda aerodromdan havaya qalxıb Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonu istiqamətində uçuş yerinə yetirdik. Poliqona çatıb enişi yerinə yetirdiyimiz anda helikopter qəfildən sürətlə düşməyə başladı və yerə çırpıldı. Ondan sonra heç nə yadımda deyil. Qəza nəticəsində üzümdən və sol dizimdən xəsarətlər almışam. Hazırda vəziyyətim yaxşıdır".

Xatırladaq ki, noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) "Mİ-17" tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində 14 hərbi qulluqçumuz həlak olub, 2 hərbi qulluqçu yaralanıb. Hadisə ilə əlaqədar Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 352.2-ci (uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ehtiyatsızlığından iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) və digər maddələri ilə cinayət işi başlanıb, aidiyyəti qurumların nümayəndələrindən ibarət istintaq qrupu yaradılıb.

### “Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası”nın təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın tələblərinə uyğun olaraq sahibkarların məhsullarının satışını təşviq etmək məqsədilə zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2021-ci il*

### Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Emin Zamin oğlu Hüseynov “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2021-ci il*

### “Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 24 may tarixli 2656 nömrəli Sərəncamının ləğv edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 24 may tarixli 2656 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 493) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2021-ci il*

## YAP “Yedinaya Rossiya” Partiyasının 20 illik yubileyinə həsr edilən videokonfransda təmsil olunub



Dekabrın 1-də Rusiyanın “Yedinaya Rossiya” Partiyasının 20 illik yubileyinə həsr olunan “XXI əsrin qlobal çağırışları: partiyalararası ölçü” mövzusunda videokonfrans keçirilib.

YAP Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Asiya, Avropa, Afrika və Latın Amerikası ölkələrinin aparıcı siyasi partiyalarının rəhbər şəxslərinin qatıldıqları tədbirdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov çıxış edib.

Əli Əhmədov əvvəlcə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin yubiley münasibətilə “Yedinaya Rossiya” Partiyasının sədri, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədrinin müavini Dmitri Medvedevə ünvanladığı təbrik məktubunu səsləndirib.

Videokonfransda çıxış edən Ə.Əhmədov qlobal təhlükələrə qarşı mübarizənin ən səmərəli yolunun beynəlxalq əməkdaşlıq çərçivəsində olduğunu qeyd edib. Onun sözlərinə görə, XXI əsrin qlobal çağırışlarına münasibətdə partiyalararası dialoq zəruri konsensusa və beynəlxalq əməkdaşlığa nail olmaq üçün ən yaxşı vasitə ola bilər.

COVID-19 pandemiyası ilə mübarizə sahəsində Azərbaycanda yetkin əhalinin 80 faizinin peyvənd olunduğunu diqqətə çatdıran partiya Sədrinin müavini Azərbaycanın işğaldan azad olunan ərazilərində aparılan bərpa, yenidənqurma və regionda daimi sülhün təmin olunması istiqamətində görülən işlərdən geniş bəhs edib.

Qeyd edək ki, videokonfransa YAP Mərkəzi Aparatının 20 nəfər əməkdaşı qoşulub.

## “Laçında hava limanının inşası Azərbaycanın diplomatik gücünün və iqtisadi qüdrətinin təcəssümüdür”

“Laçında beynəlxalq hava limanının tikintisinə start verilməsi ilə işğaldan azad edilmiş ərazilərimizdə inşa edilən hava limanlarının sayı üçə çatıb. Gəncə Beynəlxalq Hava Limanını və hazırda fəaliyyət göstərməyən, amma gələcəkdə bərpa olunması nəzərdən keçirilən Naftalan aeroportunu da nəzərə alsaq, Qarabağ bölgəsi beş hava limanı ilə əhatə olunacaq. Yeni aeroportların inşası üçün strateji mövqelər seçilib. Füzuli İranla, Zəngilan isə həm İran, həm Ermənistan ilə həmsərhəd rayonlardır. Eyni zamanda Zəngilan Zəngəzur dəhlizinin üzərində yerləşir. Laçın aeroportu isə xüsusilə həssas nöqtədə, yəni Laçın dəhlizinin keçdiyi yerin, ərazimizdə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının və Ermənistanla sərhədimizin yaxınlığındadır”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini Adil Əliyev ifadə edib.

O, bildirib ki, hava limanları beynəlxalq aviasiya təşkilatları tərəfindən tanınır və rəsmi qeydiyyatdan keçir. Bu isə öz növbəsində həmin aeroportların və onların yerləşdikləri ərazilərin Azərbaycan Respublikasının yurisdiksiyasına aid olduğunu beynəlxalq səviyyədə bir daha təsbit edir. Bunun əhəmiyyətini anlamaq üçün Qarabağda hələ sovet dövründən mövcud olmuş Xocalı aeroportunu xatırlayaq. Ermənistan işğal dövründə ciddi cəhdlər etsə də, Xocalı aeroportundan istifadə edə bilmədi. Məhz ona görə ki, bu hava limanı beynəlxalq hüquqla Azərbaycanın yurisdiksiyasındadır. Beynəlxalq hüquqda mövqeyimizin güclü olması bizim xeyrimizədir. Hətta Fransa Prezidenti Emmanuel Makron erməni diasporunun nümayəndələri ilə görüşdə etiraf etməyə məcbur oldu ki, bu torpaqlar beynəlxalq hüquqa əsasən Azərbaycan Respublikasına məxsusdur və bu səbəbdən Fransa müharibəyə müdaxilə edə bilməzdi. Oxşar fikirləri 44 günlük Vətən müharibəsinin gedişi zamanı Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də səsləndirdi. Bu baxımdan işğaldan azad edilən ərazilərdə beynəlxalq hava limanlarının inşası və onların strateji mövqelərdə yerləşməsi Qələbəmizin nəticələrinin beynəlxalq hüquq müstəvisində möhkəmləndirilməsinə xidmət edir. Bu isə Azərbaycan dövlətinin diplomatik gücünün təzahürüdür.

A.Əliyevin sözlərinə görə, hava limanlarının tikintisinin əhəmiyyəti təkcə beynəlxalq hüquq konteksti ilə məhdudlaşmır. Məsələnin ciddi praktiki əhəmiyyəti var. Onların inşası xüsusən də işğaldan azad edilmiş torpaqların, o cümlədən Qarabağın və Şərqi Zəngəzurun Azərbaycanın qalan hissəsi ilə yenidən inteqrasiyası üçün önəmlidir. Təbii ki, hava nəqliyyatının olması işğaldan azad edilmiş ərazilərin bərpasında və yenidənqurma işlərinin sürətlənməsində, həmin ərazilərin məskunlaşdırılması üçün insanların gediş-gəlişində əhəmiyyətli rol oynayacaq. Hava limanları daha sonrakı perspektivdə regionun turizm potensialının reallaşdırılması, iqtisadi və logistik mərkəzlərin yaradılması imkanlarını genişləndirəcək. Bölgədə çoxsaylı hava limanlarının olmasının praktik faydaları digər amillərlə birlikdə sıravi erməni sakinlərin yenidən Azərbaycan Respublikasının vətəndaşları kimi Azərbaycana inteqrasiyasını stimullaşdıracaq. Bu perspektivin artıq ilkin işartıları var. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bəzi erməni sakinlər Azərbaycan tərəfinə tikinti və yenidənqurma layihələrində işləmək istədiklərini bildiriblər.

Adil Əliyev qeyd edib ki, hava limanlarının yaradılması ciddi maliyyə və iqtisadi resurslar tələb edir ki, Azərbaycan dövləti də bunu təmin etməyə qadirdir. Amma siyasi iradə və diplomatik güc olmadan təkcə iqtisadi imkanların mövcudluğu bu işlərin həyata keçirilməsi üçün yetməzdi. Bu baxımdan işğaldan azad edilmiş ərazilərimizdə tikilən hava limanlarının xüsusən də aeroport tikintisi üçün olduqca çətin relyefini və coğrafi şəraitini nəzərə alsaq, Laçın hava limanının inşasına başlanması Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və dövlət başçısının diplomatik məharətinin təcəssümüdür.

# Müstəqil siyasətin və qətiyyətin ifadəsi

## Prezident İlham Əliyevin Soçi və Aşqabad görüşləri birmənalı şəkildə təqdir edilir

Ötən həftə Azərbaycanın ictimai-siyasi həyatında çox mühüm tarixi hadisələr yaşandı. Noyabrın 26-da Soçi şəhərində Prezident İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli formatda görüş keçirildi. Noyabrın 28-də isə Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı baş tutdu.

Prezidentin Soçi görüşü və Aşqabad səfəri zamanı qəbul edilən mühüm sənədlər, aparılan danışıqlar günün əsas müzakirə mövzusudur. Bu məsələ ilə bağlı fikirlərini bölüşən siyasətçilər birmənalı fikirlər səsləndirdilər. Onlar bildirdilər ki, hər iki toplantı Azərbaycan Prezidentinin xarici siyasətinin təntənəsidir.

### Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının nüfuz mərkəzinə çevrilir

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyir ki, Aşqabad şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı üzv dövlətlərin və bütövlükdə bölgənin davamlı iqtisadi inkişafına töhfə verməsi baxımından çox əhəmiyyətli siyasi hadisədir.

Əli Hüseynlinin fikrincə, Zirvə toplantısı maraqlı müzakirələr və görüntülərlə yadda qalıb. Toplantı çərçivəsində təşkilatdaxili məsələlərin müzakirəsi ilə yanaşı, iştirakçı dövlətlər arasında baş tutan görüşlər də diqqət çəkib. Bu sırada Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi və Pakistan Prezidenti Arif Alvi ilə səmimi söhbətlərini əks etdirən görüntülər xüsusi maraq yaradıb: “Prezident İlham Əliyev Zirvə toplantısında çıxış etdi. Azərbaycanın İƏT-in fəal üzvü olması, beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq qurması vurğulandı. Soçi görüşündən sonra Prezident İlham Əliyev İƏT tribunasından da Zəngəzur dəhlizinin artıq reallığa çevrildiyini bəyan etdi. Bu yeni nəqliyyat infrastrukturunun “Şərq-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin önəmli hissəsinə çevriləcəyi, İƏT-ə üzv ölkələrin də bu dəhlizdən böyük fayda götürəcəyi barədə əminliyini ifadə etdi. Vurğuladı ki, Azərbaycan son illər faktiki olaraq Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Zəngəzur dəhlizinin reallaşması regionun nəqliyyat sektorunda yeni imkanlar yaradacaq”.

### Soçi görüşü Ermənistan üçün acı həqiqət anı oldu

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev deyir ki, Prezident İlham Əliyevin noyabrın 26-da Soçi şəhərində Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanla üçtərəfli formatda keçirilən görüşü Yerevan üçün acı həqiqət anı oldu.

Adil Əliyev Ermənistan rəhbərliyinin Azərbaycanla dövlət sərhədinin delimitasiya və demarkasiyası prosesinə başlanılması və Zəngəzur dəhlizinin açılması ilə bağlı birmənalı olmayan, ziddiyyətli bəyanatlar verərək məsələni uzatmağa çalışdığını xatırladaraq bildirir: “Ermənistan hər vəchlə “dəhliz” ifadəsinin işlədilməsinə və Zəngəzur dəhlizinin açılmasına qarşı çıxırdı. Son vaxtlar Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş silahlı təxribatlar da bu məqsədi güdürdü. Digər tərəfdən isə, mövzunu Rusiya-Ermənistan-Azərbaycan formatından çıxararaq Qərbi, o cümlədən Avropanı prosesə cəlb etməklə danışıqlar platformasını dəyişməyə, ATƏT-in Minsk qrupunu yenidən dirçəltməyə və vaxt qazanmağa cəhd edirdi”.

Milli Məclis Sədrinin müavini vurğulayır ki, Soçidə üçtərəfli görüşün nəticəsi olaraq imzalanmış 26 noyabr bəyanatı rəsmi Yerevanın bu cəhdlərinin uğursuzluğa düçar olduğunu göstərdi.

Adil Əliyevin sözlərinə görə, Azərbaycanın üstünlüyü ondadır ki, onun mövqeyi həm Rusiyanın vasitəçilik etdiyi üçtərəfli formatda, həm də Avropa platformasında Ermənistandan güclüdür. Azərbaycan Avropa İttifaqının doqquz üzvü ilə, o cümlədən əsas ticarət tərəfdaşlarımızdan biri olan İtaliya ilə Strateji Tərəfdaşlıq Sazişi imzalayıb. Avropa İttifaqının aparıcı iqtisadi gücü olan Almaniya Ermənistan-Azərbaycan münaqişəsində neytral mövqe nümayiş etdirdi və rəsmi Berlin ölkəmizin ərazi bütövlüyünü tanıyıb. Bir müddət əvvəl Almaniya Kansleri Angela Merkel ərazi bütövlüyünün pozulmasını qınayaraq bildirmişdi ki, bu, Qarabağ müharibəsinə səbəb olub.

Milli Məclis Sədrinin müavini diqqətə çatdırır ki, Prezident İlham Əliyevin ustalıqla apardığı və beynəlxalq ziddiyyətlərdən milli mənafelərimiz naminə məharətlə istifadə etdiyi yetkin xarici siyasət sayəsində ölkəmizin nüfuzu və bizə olan etimad dünyanın müxtəlif siyasi qütblərində və paytaxtlarında hörmətlə qarşılanır və Azərbaycanla hesablaşırlar. Soçi görüşünün nəticələri bu hörmət və nüfuzun daha bir təzahürüdür.

### Azərbaycan üzv olduğu bütün təşkilatlarda ən etibarlı tərəfdaş kimi tanınır

Milli Məclisin deputatı Məlahət İbrahimqızı isə hesab edir ki, Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Aşqabadda keçirilən XV Zirvə Toplantısında İƏT-in siyasi-iqtisadi, geosiyasi əhəmiyyətini, ölkəmizin bu təşkilatda daim fəal olduğunu, üzv dövlətlər arasında münasibətlərin dostluq və qarşılıqlı hörmətə əsaslandığını xatırlatdı: “Prezident İlham Əliyev çıxışında ölkəmizdə son illərdə bütün sahələrdə aparılan uğurlu islahatlar, iqtisadiyyatımızın dinamik inkişafı, qlobal maliyyə böhranı və pandemiya mühitində artan xarici sərmayə qoyuluşu, yoxsulluq və işsizliyin səviyyəsinin minimum həddə salınması və əldə olunmuş nailiyyətlərin beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsi haqqında məlumatları üzv dövlətlərin rəhbərlərinin diqqətinə çatdırdı. Dövlətimizin başçısı COVID-19 pandemiyasının ilk günündən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə görülmüş və beynəlxalq təşkilatlar tərəfindən təqdir edilmiş işlərlə bağlı məlumat verdi. “Peyvənd millətçiliyi”ni kəskin tənqid etməklə bərabər, bu xəstəliyə qarşı mübarizədə beynəlxalq aləmdə səylərin səfərbər olunmasının zəruriliyini vurğuladı”.

Deputatın sözlərinə görə, Zirvə toplantısında Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində qazandığımız Zəfəri, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoyulması, Ermənistanın məğlubiyyət və kapitulyasiya aktını imzalamasına məcbur edilməsi ilə bağlı həmkarlarını bir daha məlumatlandırıb: “Prezident İlham Əliyevin İƏT-in Zirvə toplantısındakı çıxışı Azərbaycan dövlətinin gücünün, nüfuzunun, sürətli inkişafının göstəricisi olmaqla, İƏT çərçivəsində beynəlxalq əməkdaşlığın üzv ölkələr üçün çox faydalı və zəruri ehtiyac olmasının ifadəsi idi”.

### Gücün, nüfuzun və lider qətiyyətinin göstəricisi

Milli Məclisin deputatı Könül Nurullayeva isə deyir ki, Prezident İlham Əliyevin Soçi və Aşqabada səfərləri Azərbaycanın, xüsusən də dövlət başçısının yürütdüyü tam müstəqil, qətiyyətli xarici siyasətin növbəti təntənəsi kimi yadda qaldı.

Deputatın fikrincə, həm Soçidə keçirilən üçtərəfli görüşdə qəbul olunan sənəddə, həm də Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Görüşünün yekun bəyanatında əksini tapan müddəalar Azərbaycanın dövlət siyasətinə və milli maraqlarına xidmət edir.

Azərbaycanın 1992-ci ildən İƏT-lə fəal əməkdaşlıq etdiyini söyləyən deputatın sözlərinə görə, təşkilata üzv dövlətlərlə münasibətlər dostluq və qarşılıqlı hörmətə əsaslanır. Ümumiyyətlə, İƏT-in üzvü olan ölkələr bir neçə beynəlxalq platformada, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində sıx əməkdaşlıq edirlər.

Prezident İlham Əliyevin Türkmənistanda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Görüşündə iştirakı və səfər çərçivəsində təşkilata üzv dövlətlərin liderləri ilə keçirdiyi təkbətək görüşlər isə olduqca əhəmiyyətli hadisələr kimi tarixə yazıldı:

“Azərbaycan üzv olduğu bütün təşkilatlarda birləşən dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıqda ən etibarlı tərəfdaş kimi tanınır. Bu etimadın nəticəsidir ki, İqtisadi Əməkdaşlıq Təşkilatının Aşqabad Bəyannaməsində üzv dövlətlər Azərbaycanın 44 günlük Vətən müharibəsindəki şanlı Zəfərinə görə ölkəmizi təbrik etdilər və respublikamızla işbirliyində maraqlı olduqlarını bildirdilər. Burada maraqlı bir məqam da var. İƏT-in üzvü olan 3 ölkə - Qazaxıstan, Qırğızıstan və Tacikistan həm də Ermənistanın təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvləridirlər. Yəni bu 3 ölkənin digər üzv dövlətlərlə birlikdə Azərbaycanı ərazi bütövlüyünün bərpası münasibətilə təbrik etməsi ölkəmizlə olan münasibətlərə verilən yüksək əhəmiyyətlə yanaşı, Ermənistana olan münasibəti də əks etdirir. Bəlli olur ki, Ermənistan hətta təmsil olunduğu hərbi-siyasi blokda belə heç bir dəyərə malik deyil”.

Deputatın fikrincə, bəyannamədə Azərbaycan xalqı və hökumətinə 30 illik işğala son qoyulması ilə bağlı ünvanlanan təbrik təsadüfi deyil. Bu, ölkəmizin beynəlxalq nüfuzuna, Azərbaycan xalqının mübarizə əzminə, Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinə, diplomatik məharətinə verilən yüksək dəyərdir. Azərbaycan dövlətinin beynəlxalq hüququn norma və prinsiplərinə söykənən ədalətli mövqeyinin dəstəklənməsidir: “Əminliklə deyə bilərəm ki, Prezident İlham Əliyevin İƏT-in Zirvə toplantısındakı çıxışı Azərbaycan dövlətinin gücünün, nüfuzunun, sürətli inkişafının göstəricisi və lider qətiyyətinin ifadəsi idi”.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Qürurlu və mətin LİDER

## Soçi görüşü və Aşqabad zirvəsi Müzəffər Komandan İlham Əliyevin Ermənistana növbəti zərbəsi kimi tarixə düşdü

*Əvvəli 1-ci səh.*

### Gözlənilən diplomatik qələbə

Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov deyir ki, Aşqabad Bəyannaməsində Azərbaycana işğal olunmuş ərazilərin azad edilməsi və ərazi bütövlüyünün bərpası münasibətilə təbriklərin yer alması birbaşa Ermənistana zərbədir. Özü də bu, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olan Qazaxıstan, Qırğızıstan və Tacikistan tərəfindən olan təbriklərdir.

S.Markov bunu Azərbaycanın diplomatik qələbəsi adlandırıb: “Burada müasir dünyanın görkəmli diplomatlarından biri olan Prezident İlham Əliyevin şəxsiyyətinin rolu olub. Bu, gözlənilən diplomatik qələbədir, Azərbaycan rəhbərliyinin bütün illik fəaliyyətinin nəticəsidir”.

S.Markov vurğulayıb ki, Ermənistanla qarşıdurmada Azərbaycan əksər dövlətlərdən, o cümlədən postsovet məkanındakı ölkələrdən və Ermənistanın KTMT-nin üzvü olmasına baxmayaraq, bu təşkilatın əksər üzvlərindən böyük dəstək alır.

Onu da qeyd edək ki, Zirvə görüşü maraqlı müzakirələrlə yadda qaldı. Toplantı çərçivəsində iştirakçı dövlətlər arasında liderlərin təkbətək görüşləri diqqət çəkdi. İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi və Pakistan Prezidenti Arif Alvi ilə səmimi söhbətlərini əks etdirən görüntülər xüsusi maraq yaratdı. İkitərəfli görüşlərdə Azərbaycanın regionda və dünyada artan rolunun təqdir edilməsi, ölkəmizin tarixi Zəfərinin yaratdığı reallıqların böyük perspektivlər vəd etdiyinin vurğulanması uğurlu siyasətin məqsədyönlülüyünü, gələcəyə hesablandığını bir daha təsdiqlədi. Azərbaycanın İƏT-in fəal üzvü kimi beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində hər iki quruma üzv dövlətlərlə səmərəli əməkdaşlıq qurması xarici siyasətin prioritet istiqamətlərindəndir.

### Araz çayı boyunca dəmir yolu və avtomobil yolunun tikintisi məsələsi də həllini tapıb

Zirvə toplantısında digər mühüm məqamlardan biri Zəngəzur dəhlizinin açılmasının regiona hansı yenilikləri gətirəcəyi barədə oldu.

İlham Əliyev bəyan etdi ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu “Şərq-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin önəmli hissəsinə çevriləcək. İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər.

Soçi görüşündən sonra İlham Əliyevin İƏT tribunasından da Zəngəzur dəhlizinin artıq reallığa çevrilməsini bəyan etməsi özündə bir sıra vacib məqamlar ehtiva edir. Azərbaycan son illər Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Zəngəzur dəhlizinin reallaşması regionun nəqliyyat sektorunun inkişafına yeni imkanlar yaradacaq.

İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr tərəfindən Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsindən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqlar birmənalı olaraq yüksək qiymətləndirilib. Çünki İƏT üzvləri arasında ticarət həcmini artırmaq, iqtisadi əlaqələri fəallaşdırmaq üçün yaxşı fürsətlər yaranıb və bu baxımdan Türkiyənin irəli sürdüyü Xəzərdən keçən Şərq-Qərb Orta dəhliz təşəbbüsü və Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsi xüsusi əhəmiyyət kəsb edir.

Zirvə görüşü çərçivəsində təkbətək görüşlər keçirən liderlər digər mühüm məsələlər ətrafında da müzakirələr aparıblar. Onlardan biri də Araz çayı boyunca dəmir yolu və avtomobil yolunun tikintisi məsələsidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkmənistandan qayıdarkən mətbuata açıqlamasında deyib ki, artıq məsələ müsbət həllini tapıb: “Araz çayı boyunca dəmir yolu və avtomobil yolunun tikintisi məsələsi də həllini tapıb. Bu addımla yanaşı, İğdıra çəkiləcək avtomobil yolu məsələsi də var. Bu avtomobil yolu ilə, xüsusilə Naxçıvan məsələsi həll olunmaqla, həmçinin Azərbaycanın Ermənistan ərazisindən keçməklə İğdırla əlaqəsinin yaradılması yolunda addım atılmış olacaq. Bu istiqamətdə həm dəmir yolu, həm də avtomobil yolu ilə daşımaların artırılması üçün böyük addım atılacaq”.

Zirvə görüşü çərçivəsində Azərbaycanla İran arasında imzalanan saziş də tarixi əhəmiyyətə malik sənəd hesab olunur. İki ölkənin prezidentlərinin iştirakı ilə “İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş”ə əsasən Azərbaycan İran üzərindın Türkmənistan qazını alacaq. Sazişi dəyərləndirən İlham Əliyev qeyd edib ki, bu, üçtərəfli əməkdaşlıq üçün çox gözəl zəmindir və dost ölkələrin niyyətini göstərir. İmzalanmış bu sənədin iqtisadi və enerji təhlükəsizliyi baxımından da çox böyük önəmi var.

İran Prezidenti Seyid İbrahim Rəisi isə sazişi qiymətləndirərkən deyib ki, Azərbaycan, İran və Türkmənistan arasında imzalanan qaz sazişi əlaqələrin, iki və üç ölkə arasındakı münasibətlərin inkişafına xidmət edəcək. Bu sahədə ciddi və çoxsaylı addımların atılması zəruridir və iki ölkənin iradəsi sayəsində ölkələrimiz arasındakı əlaqələr, o cümlədən iqtisadiyyat, ticarət, tranzit, mədəni sahələrdə əməkdaşlıq iki dövlət arasındakı əlaqələrin genişlənməsinə yönəlməlidir.

### Yeni reallıqlara uyğun əməkdaşlıq formatları yaradılacaq

Aşqabad Zirvə görüşündə, eləcə də səfər çərçivəsində dövlət başçıları arasında baş tutan görüşlərdə müzakirə olunan aktual məsələlər bir daha sübut edir ki, yalnız səyləri birləşdirməklə və İƏT-in mövcud imkanlarından daha səmərəli istifadə etməklə qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmaq mümkündür.

Qlobal miqyaslı təşəbbüsləri ilə regionda bir çox beynəlxalq layihələrin reallaşmasında müstəsna rolu olan Azərbaycan Prezidentinin təklifləri İƏT-ə üzv dövlətlər üçün əlverişli imkanlar yarada bilər.

Bir sözlə, əminliklə deyə bilərik ki, yeni reallıqlara uyğun yeni əməkdaşlıq formatları yaradılacaq və qarşılıqlı əməkdaşlıq fonunda bölgənin iqtisadi inkişafı daha da sürətlənəcək.

***R.BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ölkə ərazisində fəaliyyət göstərən ticarət şəbəkələrində satışının genişləndirilməsinə, o cümlədən istehsal edilmiş məhsulların satışı ilə bağlı ticarət fəaliyyətinin təşkilinə çəkilən xərclərin ödənilməsi şərtlərini müəyyən edir.

1.2. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və şərtlərlə mikro və kiçik sahibkarlıq subyektləri kateqoriyasına aid edilmiş kommersiya hüquqi şəxslərinin və fərdi sahibkarların (bundan sonra - sahibkar) bu Qayda ilə müəyyən olunmuş dəstək tədbirlərindən istifadə etmək hüququ vardır.

1.3. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. **ticarət şəbəkəsi** - sahibkarlara qanuni əsaslarla məxsus olan və bir əmtəə nişanı altında fəaliyyət göstərən iki və ya daha çox ticarət obyektinin məcmusu;

1.3.2. **ticarət obyekti** - müxtəlif çeşidli malların alqı-satqısı, ictimai iaşə, məişət və digər növ xidmətlərin həyata keçirildiyi və işlərin görüldüyü açıq və ya qapalı ticarət kompleksi;

1.3.3. **satış yeri** - sahibkarların istehsal etdikləri məhsulların satışının genişləndirilməsinə dəstək üçün Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra - Agentlik) tərəfindən icarəyə götürülmüş ticarət obyektinin müəyyən sahəsi (ticarət rəfləri, piştaxtalar, stellajlar və s.) və ya sahibkarların məhsullarının satışı məqsədilə Agentliyin stendinin təşkil edilməsi üçün yer, o cümlədən yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış satış-sərgi yerləri.

1.4. Bu Qayda ilə müəyyən edilmiş dəstək tədbirləri aşağıdakı sahibkarlara şamil edilmir:

1.4.1. müflis elan olunmuşlara, yaxud barələrində iflas proseduru başlanılmış, ləğv və ya dayandırılma mərhələsində olan sahibkarlara;

1.4.2. dövlət büdcəsinə vergilər, məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta və tibbi sığorta üzrə ödəmə vaxtı keçmiş borcları olanlara, dövlət dəstəyi göstərilməsi şərtlərini pozmaqla dövlət dəstəyi alanlara, yaxud büdcə vəsaitinin məqsədli təyinatını pozmaqla dövlət dəstəyindən istifadə edənlərə;

1.4.3. nizamnamə kapitalında dövlətin, qeyri-kommersiya təşkilatlarının, xeyriyyə fondlarının (əlillər təşkilatları istisna olmaqla) və digər fondların payı 25 faiz və ondan çox olan hüquqi şəxslərə, habelə Agentliyin işçilərinə və onların yaxın qohumlarına (ərinə (arvadına), valideynlərinə, o cümlədən ərinin, arvadının valideynlərinə, babalarına və nənələrinə, övladlarına, övladlığa götürənlərinə (götürülənlərinə), qardaşlarına və bacılarına);

1.4.4. sənaye məhəllələrinin, sərbəst zonaların, xüsusi iqtisadi zonaların, sənaye və ya texnologiyalar parklarının rezidentlərinə;

1.4.5. hasilatın pay bölgüsü haqqında sazişlərin iştirakçılarına, silah satışı və faydalı qazıntıların hasilatı ilə məşğul olanlara;

1.4.6. əmtəəsiz və (və ya) riskli əməliyyatlar apardığına görə barəsində riskli vergi ödəyicisi olması barədə qərar çıxarılmış vergi ödəyicilərinə.

1.5. Dəstək tədbirlərinin təşkilini və dəstək məbləğinin ödənilməsini Agentlik həyata keçirir.

1.6. Bu Qayda ilə müəyyən edilmiş dəstək tədbirlərinin maliyyələşdirilməsi mənbələri aşağıdakılardır:

1.6.1. Agentliyə dövlət büdcəsindən ayrılmış vəsait;

1.6.2. Agentliyin fəaliyyəti nəticəsində əldə etdiyi sərbəst vəsait;

1.6.3. qrantlar, ianələr, texniki və maliyyə yardımları;

1.6.4. sahibkarlıq subyektlərinin sosial məsuliyyət çərçivəsində ayırdıqları vəsait;

1.6.5. qanunla qadağan edilməyən digər mənbələr.

1.7. Bu Qaydada nəzərdə tutulmuş dəstək tədbirlərində iştirak edəcək sahibkarları aşağıda göstərilən meyarlara əsasən Agentlik seçir:

1.7.1. məhsulun Azərbaycanda ilk dəfə istehsal olunması;

1.7.2. məhsulun idxalı əvəzləmək potensialı;

1.7.3. məhsulun, Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla, digər regionlarda istehsal edilməsi;

1.7.4. sahibkarın ticarət şəbəkələrinə çıxış təcrübəsinin olmaması.

1.8. Bu Qayda ilə müəyyən edilmiş dəstək tədbirlərində iştirak etmək barədə müraciətlərə onların Agentliyə daxil olduğu təqvim ardıcıllığı ilə baxılır.

1.9. Bu Qaydada nəzərdə tutulmuş dəstək məbləğinin ödənilməsi yalnız nağdsız qaydada həyata keçirilir.

**2. Sahibkarların istehsal etdikləri məhsulların satışının genişləndirilməsi**

2.1. Sahibkarların istehsal etdikləri məhsulların satışının genişləndirilməsinə dəstək aşağıdakı tədbirlərdən ibarətdir:

2.1.1. ticarət obyektlərində müəyyən sahənin (ticarət rəflərinin, piştaxtaların, stellajların və s.) Agentlik tərəfindən icarəyə götürülməsi;

2.1.2. sahibkarların məhsullarının satışı məqsədilə ticarət obyektlərində müəyyən sahəni icarəyə götürməklə Agentliyin stendinin təşkil edilməsi;

2.1.3. yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış yerlərdə Agentlik tərəfindən satış-sərgi üçün şərait yaradılması.

2.2. Satış yerinin dövlət vəsaiti hesabına icarəyə götürülməsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

2.3. Agentlik tərəfindən icarəyə götürülmüş və sahibkarların istifadəsinə verilməmiş, habelə sahibkarların istifadəsinə verilmiş satış yerləri barədə məlumatlar Agentliyin rəsmi internet səhifəsində, o cümlədən mövcud məlumatlandırma portallarında yerləşdirilir və mütəmadi olaraq yenilənir.

2.4. Sahibkarların istehsal etdikləri məhsulların satış yerlərində yerləşdirilməsi onların müraciəti əsasında həyata keçirilir. Sahibkarlardan daxil olmuş müraciətlər bu Qaydanın 1.7-ci bəndi ilə müəyyən edilmiş meyarlara əsasən qiymətləndirilir və meyarların daha çoxuna uyğun gələn sahibkarlara üstünlük verilməklə, onlarla istehsal etdikləri məhsulların satış yerinin müəyyən hissəsində (bundan sonra - satış sahəsi) yerləşdirilməsi barədə müqavilə imzalanır və həmin sahibkarlar barədə məlumatlar Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir.

2.5. Bu Qaydanın 2.4-cü bəndində nəzərdə tutulmuş müqaviləyə uyğun olaraq sahibkarın istifadəsinə verilən satış sahəsinin ölçüsü 50 (əlli) sm müəyyən edilir. Müraciət edənlərin sayı, hər bir müraciət edənin məhsullarının çeşidlərinin sayı və ölçüləri nəzərə alınmaqla, Agentliyin qərarı ilə sahibkarların istifadəsinə verilən satış sahəsinin ölçüsü əlavə 50 (əlli) sm-dək artırıla bilər.

2.6. Sahibkarın istehsal etdiyi məhsulların satış sahəsində yerləşdirilməsi barədə müqavilənin müddəti 3 (üç) ayadək müəyyən edilir. Müraciət edənlərin sayı və istehlakçıların satış yerlərində yerləşdirilən məhsullara olan marağının həcmi nəzərə alınaraq, Agentliyin qərarı ilə sahibkarın istifadəsinə verilən satış sahəsindən istifadə müddəti bir dəfə 3 (üç) ayadək uzadıla bilər.

2.7. Satış sahəsinin sahibkarın istifadəsinə verilməsi ödənişli qaydada həyata keçirilir. Mikro sahibkarlıq subyekti onun istifadəsinə verilmiş satış sahəsinə görə Agentliyin ödədiyi icarə haqqının 20%-i miqdarında, kiçik sahibkarlıq subyekti isə onun istifadəsinə verilmiş satış sahəsinə görə Agentliyin ödədiyi icarə haqqının 50%-i miqdarında haqqı Agentliyə ödəyir.

2.8. Bu Qaydaya əsasən Agentlik tərəfindən bir təqvim ili ərzində icarəyə götürülən satış yerlərinin sayı 10-dan çox, icarəyə götürülən bir satış yerinə görə illik icarə haqqı isə 20000 (iyirmi min) manatdan artıq ola bilməz.

**3. Satış yerlərində ticarət fəaliyyətinin təşkilinə dəstək**

3.1. Satış yerlərində ticarət fəaliyyətinin təşkilinə dəstək ticarət fəaliyyətinin həyata keçirilməsi üçün sahibkar tərəfindən alınan rəsmi sənədlərə ödənilmiş rüsum və xidmət haqlarının bir hissəsinin ödənilməsindən ibarətdir. Satış yerlərində ticarət fəaliyyətinin təşkilinə görə hər bir sahibkara ödənilən dəstək məbləği qeyd olunan işlərlə bağlı çəkilən xərclərin 50 (əlli) faizini (1000 (min) manatdan artıq olmamaqla) təşkil edir.

3.2. Agentlik tərəfindən bir təqvim ili ərzində satış yerlərində ticarət fəaliyyətinin təşkilinə dəstək göstəriləcək sahibkarların sayı bu Qaydanın 1.6-cı və 3.1-ci bəndlərinə uyğun olaraq ayrılmış vəsaitin həcmindən asılı olaraq müəyyən edilir.

3.3. Dəstək göstəriləcək sahibkarların müraciətləri bu Qaydanın 1.7-ci bəndi ilə müəyyən edilmiş meyarlara əsasən qiymətləndirilir, meyarların daha çoxuna uyğun gələn sahibkarlara üstünlük verilir və 3.4-cü bəndin tələbləri nəzərə alınmaqla, ödəniş edilməsi ilə bağlı onlarla müqavilə imzalanır.

3.4. Bu Qaydaya uyğun olaraq satış yerlərində ticarət fəaliyyətinin təşkilinə görə dəstək məbləği aşağıdakı qaydada ödənilir:

3.4.1. sahibkar rəsmi sənədləri aldığı tarixdən 30 (otuz) iş günü müddətində dəstək məbləğini əldə etmək məqsədilə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada Agentliyə ərizə təqdim edir;

3.4.2. ərizəyə ticarət fəaliyyətinin həyata keçirilməsi üçün sahibkarın aldığı rəsmi sənədlərə ödədiyi rüsum və xidmət haqlarını təsdiq edən sənədin surəti əlavə edilir;

3.4.3. Agentlik ərizəyə və ona əlavə olunmuş sənədlərə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 30 (otuz) gün müddətində baxır. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və dəstək verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 5 (beş) gündən gec olmayaraq Agentlik onların aradan qaldırılması üçün ərizəçiyə birbaşa və ya sifarişli poçt göndərişi vasitəsilə məlumat təqdim edir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar ərizəçiyə eyni zamanda bildirilməlidir;

3.4.4. ərizəçi həmin çatışmazlıqlarla bağlı məlumatı aldığı vaxtdan ən geci 10 (on) gün müddətində bunları aradan qaldırmalıdır. Bu zaman ərizəyə baxılma ilə bağlı müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur;

3.4.5. sahibkara dəstək məbləğinin ödənilməsi haqqında Agentlik tərəfindən qərar qəbul edildiyi gündən 20 (iyirmi) iş günü müddətində Agentlik dəstək məbləğini müraciət edən şəxsin bank hesabına köçürür.

# Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

Dekabrın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişafından və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, ölkələrimiz arasında hərbi əməkdaşlığın əsas istiqamətləri müzakirə edilib.

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Qələbədən sonra azad edilən ərazilərdə görülən işlər barədə qonaqlara ətraflı məlumat verib.

Azərbaycan-Pakistan hərbi əməkdaşlığının inkişafından məmnunluğunu ifadə edən general-polkovnik Z.Həsənov Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəklədiyinə, həmçinin ölkəmizə göstərilən mənəvi dəstəyə görə Pakistan rəhbərliyinə və xalqına minnətdarlığını bildirib.

Görüşdə dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığı xüsusi vurğulanıb. Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Nazir hər üç dost və qardaş ölkələrin hərbi qulluqçularının peşəkarlıq səviyyələrinin yüksəlməsində birgə təlimlərin əhəmiyyətini qeyd edərək bu sahədə səylərin artırılmasının vacibliyini vurğulayıb.

Pakistanın müdafiə istehsalatı naziri Z.Cəlal Vətən müharibəsində qazanılan Qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin olunması münasibətilə Azərbaycan xalqını təbrik edib. Nazir Vətən müharibəsində, eləcə də noyabrın 30-da baş vermiş helikopter qəzası nəticəsində şəhid olanlara Allahdan rəhmət diləyib.

Xanım Z.Cəlal belə görüşlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından vacibliyini vurğulayıb.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi istehsalat sahələrində Pakistan və Türkiyə ilə birgə ikitərəfli, o cümlədən üçtərəfli əməkdaşlıqların inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Azərbaycanın daxili işlər naziri Pakistanın müdafiə istehsalatı naziri ilə görüşüb

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 1-də ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlal ilə görüşüb.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonağı salamlayan nazir strateji müttəfiqlər olan iki dost dövlət arasında əlaqələrin zəngin tarixə və dərin köklərə malik olduğunu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu münasibətlərin möhkəm təməllər üzərində qurulmasına hər zaman xüsusi önəm verdiklərini məmnunluqla qeyd edib.

General-polkovnik Vilayət Eyvazov qonağa ölkəmizdəki mövcud kriminogen durum, həyata keçirilən islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilən nəticələr barədə məlumat verib.

Yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə təşəkkür edən xanım Zobaida Cəlal dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin, həqiqətən, dərin köklərə malik olduğunu önə çəkərək, xüsusilə son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan məmnunluğunu bildirib. Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Türkiyə Daxili İşlər Nazirliyinin Fəlakət və Fövqəladə Hallar Departamentinin nümayəndə heyəti ölkəmizdə səfərdədir



Dekabrın 1-də Türkiyə Respublikasının Daxili İşlər Nazirliyinin Fəlakət və Fövqəladə Hallar Departamenti (AFAD) rəhbərinin müavini İsmayıl Palakoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərin məqsədi "Azərbaycan-Türkiyə İqtisadi Əməkdaşlığına dair Fəaliyyət Planı"na əsasən, FHN ilə AFAD arasında əlaqələrin inkişaf etdirilməsi, müxtəlif istiqamətlər üzrə məlumat və təcrübə mübadiləsinin genişləndirilməsi, münasibətlərin ayrı-ayrı aspektləri üzrə fikir mübadiləsinin aparılmasıdır.

Səfər çərçivəsində nazir müavini general-leytenant Etibar Mirzəyev nümayəndə heyəti ilə görüşüb.

Fövqəladə Hallar Nazirliyində keçirilən görüşdə qonaqları nazir Kəmaləddin Heydərovun adından salamlayan Etibar Mirzəyev əvvəlcə Türkiyədə baş vermiş güclü qasırğa nəticəsində dünyasını dəyişənlərlə əlaqədar başsağlığı verib və yaralılara Allahdan şəfa dilədiyini bildirib.

Nazir müavini Azərbaycan torpaqlarının işğaldan azad olunmasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və qardaş türk xalqının Azərbaycan dövlətinin və xalqının yanında olduğunu xatırladaraq, bunu qardaşlığımızın bariz nümunəsi adlandırıb. E.Mirzəyev hər iki qardaş ölkə arasındakı münasibətlərin hər zaman yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdıraraq, digər sahələrdə olduğu kimi, fövqəladə halların idarə edilməsi istiqamətində də sıx əməkdaşlıq münasibətlərinin qurulduğunu deyib. Nazir müavini 2011-ci ildə Türkiyənin Van vilayətində baş verən zəlzələnin nəticələrinin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq qardaş ölkəyə köməyə yetişən ilk ölkənin Azərbaycan olduğunu xatırladıb. O, həmçinin bu ilin iyul-avqust aylarında Türkiyədə baş vermiş meşə yanğınlarının söndürülməsi məqsədilə qardaş ölkəyə göndərilmiş FHN-in yanğın-xilasetmə qüvvələrinin fəaliyyətinə də toxunub.

Səmimi görüşə görə təşəkkürünü bildirən AFAD rəhbərinin müavini İsmayıl Palakoğlu Azərbaycanda təlim zamanı hərbi helikopterin qəzaya uğraması nəticəsində həlak olmuş hərbi qulluqçularımızla əlaqədar başsağlığını çatdırıb, yaralananlara şəfa dilədiyini deyib.

Hər iki ölkənin fövqəladə hallarla mübarizə sahəsində fəaliyyət göstərən qurumları arasında mövcud əlaqələrin ildən-ilə inkişaf etdiyini önə çəkən İ.Palakoğlu bu ilin yayında Türkiyədəki yanğınların söndürülməsində Azərbaycan yanğınsöndürən-xilasedicilərinin fəaliyyətini yüksək qiymətləndirdiklərini ifadə edib. Göstərilən dəstəyə və köməyə görə Prezident İlham Əliyevə və qardaş Azərbaycan xalqına bir daha təşəkkürlərini bildirən qonaq hər iki ölkənin müvafiq qurumları arasında bundan sonra da əlaqələrin daha da dərinləşdirilməsinin vacibliyini diqqətə çatdırıb. İsmayıl Palakoğlu Azərbaycan FHN-in Beynəlxalq Axtarış-Xilasetmə Dəstəsinin BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin Beynəlxalq Axtarış-Xilasetmə Məşvərət Qrupunun (INSARAG) sinifləndirilməsindən keçməsi üçün iki ölkənin qurumları arasında birgə əməkdaşlığın genişləndirilməsinin vacibliyini də vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Sonra türkiyəli qonaqlar FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə gedərək, agentliyin rəisi Cəbrayıl Xanlarov ilə görüşüb, qurumun fəaliyyəti ilə yerində tanış olublar.

Görüş çərçivəsində AFAD nümayəndə heyəti FHN-in strukturuna daxil olan digər qurumlara və Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzinə də gedəcək və bu qurumların fəaliyyəti ilə yaxından tanış olacaqdır.

# Daha bir qrup Vətən müharibəsi qazisi ən müasir 4-cü nəsil elektron protezlə təmin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Günü ərəfəsində daha bir qrup Vətən müharibəsi qazisi yüksək texnologiyalı protezlərlə təmin edilib.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, aşağı və yuxarı ətrafları amputasiya olunmuş qazilərimiz əvvəlcə nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində protezləşməyə hazırlıq mərhələsi keçiblər. Həmin mərhələnin yekunu olaraq onların yüksək texnologiyalı, ən müasir 4-cü nəsil elektron protezlə təminatı həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabrından nazirlik ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanaraq ətraflarını itirmiş hərbçilərin yüksək texnologiyalı elektron protezlərlə təminatı işlərini həyata keçirir. İndiyədək 164 hərbçi 173 ən müasir 4-cü nəsil elektron protezlə təmin edilib. Onlardan 149-u aşağı ətraflarını itirmiş qazilərdir. Vətən müharibəsi qazilərinə təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. İstifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, qeyri-bərabər səthlərdə addımlamağa, müxtəlif məkanlarda maneəsiz dönməyə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.

Digər 15 nəfər isə yuxarı ətraflarını itirmiş qazilər "ÖSSUR Touch Bionics" protezləri ilə təmin olunub. Həmin protezlər yuxarı ətrafları amputasiya olunmuş şəxslərə xüsusi proqram təminatı vasitəsilə sosial həyata daha tez və rahat inteqrasiya imkanı yaradır. "ÖSSUR i-Limb Ultra" bioelektrik əl darağının 18 fərqli tutma variantı mövcuddur. Komplektə istifadəçinin seçiminə uyğun fərqli rəng və ölçülərə malik 6 silikon əlcək da daxildir.

# Muxtar respublikanın səhiyyə müəssisələrinə yeni təcili tibbi yardım avtomobilləri verilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Səhiyyə sisteminin təkmilləşdirilməsi bizim üçün prioritet məsələdir. Çünki insan sağlamlığı hər bir cəmiyyət, hər bir dövlət üçün əsas məsələdir". Bu gün Naxçıvan Muxtar Respublikasında səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı əsas məsələlərdəndir. Xüsusilə sakinlərin hərtərəfli tibbi xidmətlə təmin edilməsi dövlət siyasətinin əsasını təşkil edir.




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 1-də muxtar respublikanın səhiyyə müəssisələrinə 17 təcili tibbi yardım avtomobili verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov çıxış edərək deyib ki, aparılan ardıcıl tədbirlər tibbi xidmətin səviyyəsini xeyli yüksəldib və əhalinin sağlamlığının qorunması işində əsaslı dönüş yaranıb. Səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi və müasir standartlara uyğunlaşdırılması məqsədilə avadanlıq və texnikaların alınması işi ilbəil davam etdirilir, kadr hazırlığına xüsusi diqqət göstərilir. Yaradılan şəraitin və görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, pandemiyanın muxtar respublikada geniş yayılmasının qarşısı alınıb. Bu gün Ali Məclis Sədrinin tapşırığı ilə səhiyyə müəssisələrinə alınmış yeni təcili tibbi yardım avtomobillərinin təqdimatı da bu istiqamətdə görülən işlərin davamı, vətəndaşların sağlamlığına göstərilən qayğının əyani ifadəsidir. Niyazi Novruzov yaradılan şəraitə görə səhiyyə işçiləri adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Muxtar respublikada səhiyyə sahəsində görülmüş işlər icbari tibbi sığortanın tətbiqinə şərait yaratmış, tibbi xidmətin səviyyəsi yüksəlmiş, səhiyyə xidməti hər bir vətəndaş üçün əlçatan olmuşdur. Yaradılan şəraitin nəticəsidir ki, pandemiya ilə mübarizə tədbirləri muxtar respublikada mütəşəkkil təşkil olunmuşdur. Belə ki, həkim hazırlığı və maddi-texniki təminat gündəlik müraciət edən xəstələrin müalicəsinin hərtərəfli təşkilinə, mövsümi xəstəliklərin qarşısının alınmasına, peyvəndlərin vaxtında vurulmasına və digər səhiyyə xidmətlərinin göstərilməsinə imkan verdi. Bütün bunlar böyük nailiyyətlərdir".

Ali Məclisin Sədri deyib: "Hər bir ölkə üçün ən vacib məsələ insanların həyatının qorunmasıdır. Bu gün ölkəmizdə ən qiymətli sərvətimiz olan insanların həyatının qorunması, onların sağlam yaşayışlarının təminatı diqqətdə saxlanılır, səhiyyə inkişaf etdirilir. Bu tədbirlərin tərkib hissəsi olaraq muxtar respublikada da qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir. Artıq muxtar respublika əhalisi tibbi sığortadan yararlanır. İstər ucqar dağ kəndlərində, istərsə də şəhər mərkəzlərində səhiyyə müəssisələri üçün lazımi şəraitin yaradılması, tibbi avadanlıqların quraşdırılması, həkim hazırlığı və profilaktik tədbirlərin görülməsi muxtar respublikada mövsümi xəstəliklərin yayılmasının qarşısını almışdır".

Qeyd olunub ki, pandemiya dövründə əhaliyə evlərdə səhiyyə xidmətinin göstərilməsinə ehtiyac yaranmışdır. Məhz muxtar respublikada virusun qarşısının alınmasının bir səbəbi də evlərdə karantin rejiminin tətbiqi və müalicənin təşkili olmuşdur. Bunun üçünsə lazımi maşınlar və avadanlıqlar lazımdır. Son 2 il ərzində muxtar respublikanın səhiyyə müəssisələrinə tələbata uyğun təcili tibbi yardım maşınları verilib. Bu gün isə növbəti avtomobillər təqdim olunur. Səhiyyə işçiləri bunlardan səmərəli istifadə etməli, xəstələrin evdə müalicəsi və xəstəxanalara vaxtında çatdırılması düzgün təşkil olunmalıdır.

Ali Məclisin Sədri muxtar respublikada pandemiya ilə mübarizədə iştirak edən bütün həkimlərə və tibb işçilərinə, baytarlıq təbabəti xidmətinin və hüquq-mühafizə orqanlarının əməkdaşlarına təşəkkürünü bildirib, birgə fəaliyyətin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra avtomobillərin açarları təqdim olunub, yeni alınmış təcili tibbi yardım avtomobillərinə baxış olub.

Məlumat verilib ki, səhiyyə müəssisələri üçün alınan "Mercedes" və "Fiat Ducato" markalı təcili tibbi yardım avtomobilləri ilkin tibbi müdaxilə və reanimasiya tədbirlərinin aparılması üçün lazımi avadanlıqlarla təchiz edilib. Avtomobillərin salonunda daşınan xəstənin rahatlığı və müdaxilələrin keyfiyyətlə aparılması üçün havalandırma, havaqızdırıcı, kondisioner, oksigen və işıqlandırma sistemləri quraşdırılıb. Təcili tibbi yardım avtomobilləri xəstələnmə və travmalarda yerində ilk tibbi yardımın göstərilməsində və ağır hallarda tibbi müdaxilə altında xəstələrin yüksək ixtisaslaşmış səhiyyə müəssisələrinə rahat daşınmasında mühüm rol oynayacaqdır. Yeni avtomobillərin Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinə, Diaqnostika-Müalicə Mərkəzinə, Naxçıvan Muxtar Respublika Xəstəxanasına, Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanasına, Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinə, rayon mərkəzi və sahə xəstəxanalarına verilməsi nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasının baş həkimi Zəbur Bağırov yaradılan şəraitə görə səhiyyə işçiləri adından minnətdarlıq edib, bundan sonra da əhalinin sağlamlığının keşiyində duracaqlarını bildirib.

# UNEC-in iqtisadi forumunun birinci günü uğurla başa çatıb

Dekabrın 1-də Təhsil Nazirliyinin, İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşkilatçılığı ilə dövlət müstəqilliyinin bərpasının 30 illiyinə həsr olunan UNEC "İqtisadi Forumu-2021" öz işinə başlayıb.






AZƏRTAC xəbər verir ki, forumun iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsini ehtiramla yad ediblər, məzarları önünə əklil və gül dəstələri qoyublar.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə ehtiram ifadə edilib, məzarları üzərinə güllər düzülüb.

"Gülüstan" sarayında təşkil olunan UNEC-in iqtisad forumu çərçivəsində Qarabağ Dirçəliş Fondunun və UNEC Dizayn məktəbinin təşkil etdiyi rəsm sərgisinə baxış keçirilib.

Forumun açılışında Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

UNEC-in rektoru professor Ədalət Muradov çıxış edərək forum çərçivəsində ilk tədbirin dünya şöhrətli alim, Nobel mükafatçısı Əziz Səncərin gənc tədqiqatçılar ilə görüşünə həsr edildiyini bildirib. Rektor alimin həyat yolundan, elmi fəaliyyətindən söz açıb, onu hər kəsə örnək olan şəxs kimi səciyyələndirib.

Forumun devizinin "Zəfər yolu" olduğunu diqqətə çatdıran professor Ədalət Muradov bu gün hər bir azərbaycanlının ürəyinin qürurla döyündüyünü, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qəhrəmanlığı sayəsində torpaqlarımızın işğaldan azad edilməsi nəticəsində xalqımızın qələbə sevincini yaşadığını deyib. Rektor ölkəmizin hərb meydanında əldə etdiyi zəfəri, elm sahəsində də əldə edəcəyini, forumun bu istiqamətdə mühüm töhfələr verəcəyini vurğulayıb.

Tədbirdə çıxış edən Nobel mükafatı laureatı, professor Əziz Səncər yenidən Azərbaycana gəlməkdən məmnunluğunu ifadə edərək, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi zəfərdən söz açıb: "Qarabağ hamımızın könlündədir. Qarabağ zəfəri ilə Azərbaycan çox şeyi bacardı. Qarabağ qələbəsi asanlıqla qazanılmadı, çoxlu şəhidlər verdik. Bütün türk dünyası şəhidlərə minnətdardır. Azadlıq verilmir, azadlıq qazanılır. Kimsə başqa bir dövlətin torpağını işğal edərək uzun illər bunu dünyaya qəbul etdirə bilməz. Azərbaycanlı qardaşlarımız Qarabağı azad etməklə bütün dünyaya dərs verdilər".

Gənc alimlərlə təcrübəsini bölüşən professor Əziz Səncər elmi fəaliyyətindən, Nobel mükafatı qazanılması yolundakı çalışmalarından bəhs edib. Alim uşaqlara erkən yaşlarından təcrübə aparmaq bacarıqlarını öyrətməyin vacibliyindən danışıb: "Dünya ilə yarışmaq üçün bumeranq yaratmalıyıq. Təməl bilik önəmlidir. Bundan başqa, qızlara da oğlanlarla bərabər eyni təhsil fürsətləri verməliyik, erkən yaşlarda təcrübələrini reallaşdırmağa imkan yaratmalıyıq. Siyasət və elm bir-birindən fərqləndirilməlidir. Elm adamlarına imkanlar yaradılmalıdır. Elmlə məşğul olmağa başladıqda bu şəxslərə azadlıq, müstəqillik verilməlidir, onlara "bunu et, onu et", - deyilməməlidir".

Böyük maraqla qarşılanan çıxışdan sonra Əziz Səncər iştirakçıların suallarını cavablandırıb.

Forum "Azərbaycanın gələcək inkişaf strategiyası: qlobal trendlər və yerli faktorlar" mövzusuna həsr olunan panel çıxışları ilə davam edib.

Paneldə çıxış edən UNEC-in rektoru professor Ədalət Muradov hər il keçirilməsi nəzərdə tutulan forumun ölkəmizin gələcək inkişafı baxımından əhəmiyyət kəsb edən məsələlərin müzakirə platformasına çevrilməsini hədəflədiyini deyib. Forumun həm qlobal, həm də milli müstəvidə çox böyük tarixi hadisə və proseslərin yaşandığı bir dövrə təsadüf etdiyini, uzun illərdir həllini gözləyən ən böyük milli probleminin həll olunduğunu və Qarabağın işğaldan azad edildiyini deyib. Rektor Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş möhtəşəm zəfərin Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın inkişafı üçün yeni perspektivlər açdığını, Qarabağın yenidənqurma prosesinə misli görülməmiş sürətlə start verilməsinin dünyanın diqqətini bir daha Azərbaycana, onun iqtisadi imkanlarına və iqtisadi qüdrətinə yönəltdiyini bildirib.

Professor Ədalət Muradov çıxışında pandemiyanın yaratdığı yeni sosial-iqtisadi problemlərə toxunub: "Dördüncü Sənaye İnqilabı və bu çərçivədə baş verən rəqəmsallaşma qlobal iqtisadi artımı yeni və kifayət qədər də təcili çağırışlarla üz-üzə qoyur; qlobal vaksin siyasəti, idarəetmə problemləri, gəlir və sərvət bərabərsizliyinin dərinləşməsi, sosial və iqtisadi imkanlara çıxışda qeyri-bərabərliyin artması daha ədalətli iqtisadiyyatlar naminə daha adekvat siyasətlərin tətbiqini tələb edir. Rəqəmsallaşmanın sürətlə artması, iqtisadiyyatların rəqəmsal transformasiya prosesindəki qeyri-bərabərliklər, yüksək texnologiyalara əsaslanan istehsal ekosisteminin formalaşdırılması prosesində yaranan çətinliklər qlobal iqtisadi inkişaf paradiqmalarında da köklü dəyişikliklərə gətirib çıxarır. Ölkələr arasında artan rəqəmsal uçurum bir növ gələcək və həm də daha dərin iqtisadi bərabərsizliyin təməllərini atır".

Rektor bütün bu və digər məsələlər barədə forumun müxtəlif panellərində üç gün ərzində dünya miqyaslı alimlər və mütəxəssislər tərəfindən ətraflı müzakirələrin aparılacağını diqqətə çatdırıb.

UNEC-in prorektoru Neman Muradlının moderatorluğu ilə keçirilən paneldə Polşanın Kozminski Universitetinin professoru Qjeqoj Kolodko, İsveçrənin UBS Bankının Strategiya departamentinin rəhbəri Massimiliano Kastelli, İngiltərənin Bayes Biznes Məktəbinin Strategiya və rəqəmsal transformasiya üzrə professoru Gianvito Lanzolla, "McKinsey & Company" şirkətinin Moskvadakı baş tərəfdaşı Yermolay Soljenitsın mövzu ilə bağlı çıxış ediblər. Xarici qonaqlar bu istiqamətdə qarşıda duran problemlərdən və onların həlli yollarından danışıblar, trendləri açıqlayıblar.

Sonra Polşanın Kozminski Universitetinin professoru Qjeqoj Kolodkonın alimlərlə görüşü keçirilib. Polşalı professor Q. Kolodko qloballaşma və onun sosial-iqtisadi sahəyə təsiri barədə çıxış edib, iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

Forum çərçivəsində UNEC ilə Türkiyə Respublikasının Əmək və Sosial Təminat Nazirliyinin Təhsil Mərkəzi (ÇASGEM) arasında institusional əməkdaşlıq protokolu imzalanıb.

UNEC-in rektoru professor Ədalət Muradov və Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini professor Lütfihak Alpkan arasında imzalanan sənəddə birgə elmi tədqiqatların, təlim proqramlarının və layihələrinin həyata keçirilməsi, əməkdaşların təcrübə və biliklərinin mübadiləsi, birgə tədqiqat və konsaltinq fəaliyyətləri, rəqəmsal təhsil texnologiyalarında əməkdaşlıq nəzərdə tutulub.

Bu gün forum işini davam etdirəcək.

# ABŞ-ın Marşal İrsi İnstitutu Azərbaycana daha səkkiz minaaxtaran it göndərib

İşğaldan azad edilən Qarabağda minatəmizləmə əməliyyatlarına Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) daha səkkiz iti cəlb olunacaq.

ANAMA-nın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla da ABŞ-ın Marşal İrsi İnstitutu tərəfindən Agentliyə verilən itlərin sayı 20-yə çatıb. Yerdə qalan 10 itin ANAMA-ya təhvili 2022-2023-cü illərdə gözlənilir.

Xatırladaq ki, bu il avqustun 26-da Marşal İrsi İnstitutu ilə ANAMA arasında imzalanmış anlaşma memorandumu çərçivəsində həmin institut tərəfindən agentliyə 30 itin təhvil verilməsi planlaşdırılırdı.

Göndərilən itlərin altısı ANAMA-nın, qalan ikisi isə Marşal İrsi İnstitutu tərəfindən cəlb edilən donorların maliyyə dəstəyi ilə alınıb.

Öncədən göndərilən minaaxtaran itlər Agentliyin Horadiz Regional Mərkəzində bələdçisi ilə uyğunlaşma təlimi və Beynəlxalq Minatəmizləmə Standartları üzrə akkreditasiyadan keçirilərək, işğaldan azad edilən ərazilərdə əməliyyatlara cəlb olunub.

Minatəmizləmə əməliyyatlarında əsasən alman ovçarkası və Belçikanın Malinua cinsindən olan itlərə üstünlük verilir. Minaaxtaran itlərlə istifadə olunan dil ingilis və holland dilləridir. İtlər üç ayından etibarən onlar üçün ayrılmış xüsusi oyun meydançasında təlimlərə başlayır. On səkkiz ayınadək dördayaqlı köməkçilər müxtəlif növ partlayıcı qurğuların aşkarlanması bacarığına yiyələnirlər. Sonda akkreditasiyadan keçmiş minaaxtaran itlər və bələdçisi sahə əməliyyatlarına cəlb olunur.

Minaaxtaran itlər işə cəlb olunmazdan əvvəl bütün tibbi amillər nəzərdən keçirilir və itin sağlamlığı barədə sertifikat əldə edilir. Əməliyyatlarda iştirak edən minaaxtaran itlər tam sağlam olmalıdır. Həmçinin baytar nəzarəti altında itlər altı ayından etibarən qrafik üzrə və region dəyişikliyi zamanı peyvənd edilir. Əllə və mexaniki vasitələrlə təmizləmə əməliyyatları ilə birgə xüsusi təlim keçmiş minaaxtaran itlərin də ərazilərin minalardan təmizlənməsində və insan həyatının xilas edilməsində rolu əvəzsizdir. Minaaxtaran itlər təmizləmə əməliyyatlarında, texniki tədqiqatda, şübhəli sahələrin qısaldılmasında, mexaniki yolla yoxlanılmış sahələrdə aparılan keyfiyyətə nəzarət prosedurlarında istifadə olunur.

Qeyd edək ki, itlərin Azərbaycana gətirilməsi "Silk Way West Airlines" şirkəti tərəfindən təmənnasız olaraq mərhələli şəkildə həyata keçirilir.

ANAMA ilə sıx əməkdaşlıq çərçivəsində 2005-ci ildən etibarən Marşal İrsi İnstitutu agentliyin minaaxtaran itlərinin potensialının artırılmasına dəstək verir. Marşal İrsi İnstitutu tərəfindən keçirilən "Minatəmizləmə və insan həyatının xilas edilməsi" yarışında fərqləndiyinə görə müxtəlif illərdə agentliyin üç minaaxtaran iti qalib seçilib.

# *ANAMA:* "Ötən ay 414 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, noyabrın 1-dən 30-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 256, tank əleyhinə 354 mina və 223 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən ay ərzində 414 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

2020-ci il noyabrın 10-dan bu il noyabrın 30-dək isə piyada əleyhinə 10 min 456, tank əleyhinə 4 min 683 mina və 12 min 659 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Nəticədə 6358 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.




# *DİN:* "Bir qrup şəxsin Fəvvarələr meydanında icazəsiz aksiya keçirmək cəhdinin qarşısı alınıb"

Dekabrın 1-də saat 15 radələrində bir qrup şəxs ölkədə tətbiq edilmiş xüsusi karantin rejimi qaydalarını kobud şəkildə pozaraq Səbail rayonu ərazisindəki Fəvvarələr meydanında icra hakimiyyəti orqanları ilə razılaşdırılmamış aksiya keçirməyə cəhd göstərib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəhdin qarşısı polis əməkdaşları tərəfindən qətiyyətlə alınıb.

Qanunsuz aksiyanın təşkilatçıları, eləcə də polis əməkdaşlarına müqavimət göstərməyə cəhd edən bir neçə nəfər saxlanılıb, digərləri isə ərazidən uzaqlaşdırılıblar.

Saxlanılan şəxslərin hərəkətinə hüquqi qiymət verilməsi üçün müvafiq araşdırmalar aparılır.

# *DİN:* "Bakının mərkəzində razılaşdırılmamış aksiya zamanı saxlanılanlar arasında qadın və azyaşlı yoxdur"

Dekabrın 1-də Bakı şəhərinin mərkəzində keçirilən razılaşdırılmamış aksiyada saxlanılanlar arasında qadın və azyaşlı yoxdur.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq DİN-in Mətbuat xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, saxlanılan şəxslərin bir qisminə xəbərdarlıq edilib və onlar sərbəst buraxılıb, digərləri barəsində araşdırmalar davam etdirilir.

Tofiq Yaqubluya polis tərəfindən xəsarət yetirilməsi ilə bağlı iddialara cavab olaraq şöbə rəisi əlavə edib ki, onun bölmədə döyülməsi, xüsusi təzyiqə məruz qalması ilə bağlı iddialar əsassızdır. Amma bütün bunlara baxmayaraq, qeyd olunan iddialar müvafiq qaydada araşdırılacaq.

# Nobel mükafatı laureatı Əziz Səncər alimlərlə görüşüb

Dekabrın 1-də dövlət müstəqilliyinin bərpasının 30 illiyinə həsr olunan UNEC-in iqtisadi forumunda gənc alimlərlə təcrübəsini bölüşən professor Əziz Səncər elmi fəaliyyətindən, Nobel mükafatı qazanılması yolundakı çalışmalarından bəhs edib.




Alim uşaqlara erkən yaşlarından təcrübə aparmaq bacarıqlarını öyrətməyin vacibliyindən danışıb: "Dünya ilə yarışmaq üçün bumeranq yaratmalıyıq. Təməl bilik önəmlidir. Bundan başqa, qızlara da oğlanlarla bərabər eyni təhsil fürsətləri verməliyik, erkən yaşlarda təcrübələrini reallaşdırmağa imkan yaratmalıyıq. Siyasət və elm bir-birindən fərqləndirilməlidir. Elm adamlarına imkanlar yaradılmalıdır. Elmlə məşğul olmağa başladıqda, bu şəxslərə azadlıq, müstəqillik verilməlidir, onlara "bunu et, onu et", deyilməməlidir".

Böyük maraqla qarşılanan çıxışdan sonra Əziz Səncər iştirakçıların suallarını cavablandırıb.

Forum "Azərbaycanın gələcək inkişaf strategiyası: qlobal trendlər və yerli faktorlar" mövzusuna həsr olunan panel çıxışları ilə davam edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

◆ İlə yekun vurulur



# Azərbaycan özünün qlobal su problemini həll edir

## Bu prosesdə işğaldan azad edilmiş su ehtiyatlarımızın rolu böyükdür

Azərbaycan dünyanın su ehtiyatları məhdud olan ölkələri sırasındadır. Onun su ilə təminatını ödəyən mənbələrin 70 faizi ölkə hüdudlarından kənarda formalaşır. Yeraltı su mənbələrinin miqdarı isə 5,2 milyard kubmetrdir. Beləliklə, ölkə üzrə illik su çatışmazlığının səviyyəsi 4,5-5 milyard kubmetr səviyyəsində dəyişir.

Prezident İlham Əliyev ölkənin içməli və suvarma suyuna olan tələbatının ödənilməsi istiqamətində mühüm işlər gördü. Bu istiqamətdə icra olunan layihələrin sayəsində suya olan tələbatın ödənilməsində dönüş yarandı. Xüsusilə Şəmkirçay, Tovuzçay və Taxtakörpü su anbarlarının istismara verilməsi nəticəsində minlərlə hektar sahəyə suvarma suyu vermək mümkün oldu. Bu gün Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının artmasında bu su anbarlarının rolu böyükdür. Bununla yanaşı, yeraltı sulardan da geniş şəkildə istifadə edilməsi üçün ölkənin bütün regionlarında subartezian quyuları qazılır. Bu da içməli və suvarma suyuna olan tələbatın müəyyən qədərini ödəyir. Beləliklə, icra olunan layihələr sayəsində ölkədə su çatışmazlığının səviyyəsi xeyli aşağı düşüb.

Azərbaycanda su çatışmazlığının bir səbəbi də bol sulu çayların, eləcə də Suqovuşan və Sərsəngçay su anbarlarının uzun müddət işğal olunmuş ərazilərdə qalmasıdır. Ermənilər suya tələbat olan zaman suyu kəsirdilər. Payız-qış aylarında su anbarlarından normadan artıq su buraxaraq daşqınların əmələ gəlməsinə rəvac verirdilər. Nəticədə bu bölgədə yerləşən əkin sahələrinə ciddi ziyan dəyirdi.

Qarabağ bölgəsinin su potensialından səmərəli istifadə etmək məqsədilə dövlət proqramı hazırlanıb. Proqramın icrası uzun illər ermənilər tərəfindən su "terror"una məruz qalan torpaqların suvarılmasının səmərəliyinin artırılması məqsədini daşıyır. Bunun üçün, ilk növbədə, bölgədəki mövcud meliorasiya və su təsərrüfatlarının bərpasını həyata keçirmək lazımdır. Odur ki, proqram çərçivəsində işğaldan azad edilən çayların üzərində 11 hidroqurğunun tikilməsi nəzərdə tutulub.

Hazırda işğaldan azad edilmiş ərazilərin su təminatının bərpası istiqamətində zəruri tədbirlər həyata keçirilir. "Ot Kökləri və İnsan Təhlükəsizliyi" üzrə Qrant Yardımı Proqramı çərçivəsində Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu tərəfindən Füzuli rayonu Şükürbəyli kəndində içməli su təchizatının yaxşılaşdırılması üçün artezian quyusu qazılaraq transformator, "tap-stand", 5 supaylama nöqtəsi və su çəni inşa edilib. Yeni istifadəyə verilən quyudan kəndin 1600 sakini yararlana biləcək. Bundan əlavə, Meliorasiya və Su Təsərrüfatı ASC-nin Ağdam Mexaniki Suvarma İdarəsi rayonun 35 min 400 hektar əkin sahəsinin suvarılması, eləcə də 75 min nəfər əhalinin içməli və təsərrüfat suyuna olan tələbatının ödənilməsi üçün işlərə başlayıb. Artıq 28 min 249 hektar sahə subartezian quyuları, 7151 hektar sahə isə öz axını və nasos stansiyaları ilə suvarılır. Məlumat üçün bildirək ki, idarənin balansında 986 subartezian quyusu, 4 nasos stansiyası, 11 kəhriz, 4 suyığıcı göl, 365 kilometr suvarma kanalı, 192 hidrotexniki qurğu var. Bu imkanlar hesabına əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün istismarı dayanmış və suyu azalmış subartezian quyuları bərpa edilir, Prezidentin sərəncamlarına əsasən, yeni quyular qazılır. Təkcə 5 ildə rayonda 207 subartezian quyusu qazılıb istehlakçıların istifadəsinə verilib.

Rayondakı subartezian quyularının, nasosların və hidroqurğuların təmiri də diqqət mərkəzində saxlanılır, eyni zamanda kanallar ilboyu lildən təmizlənir. Məsələn, cari ilin ötən dövrü suvarma kanallarında 256 min kubmetr lildən təmizləmə işləri görülüb, 42 hidrotexniki qurğu, 480 nasos, 3 nasos stansiyasında təmir işləri aparılıb. Həyata keçirilən tədbirlər nəticəsində əkinlərin suvarma suyu ilə təminatında heç bir çətinlik yaranmayıb.

Ağdamın işğaldan azad edilən ərazilərində də su təsərrüfatı obyektlərinin bərpasına başlanılıb. Yeri gəlmişkən qeyd edək ki, rayonun işğaldan azad edilmiş ərazilərində 327 subartezian quyusu, Xaçınçay və Ağdamkənd su anbarları, 396 kilometr magistral kanallar, 427 hidrotexniki qurğu, həmçinin arxlar, kiçik su tutarları var. Artıq Xaçınçay su anbarı üzrə smeta-layihə işləri yekunlaşır. Su anbarının qarşısındakı 14 kilometr suvarma kanalı da minalardan təmizlənib. Üstəlik, bir subartezian quyusu bərpa edilib ki, onun da vasitəsilə 35 hektar ərazi suvarma suyu ilə təmin olunacaq.

Qarabağ bölgəsində su təminatı sahəsində xüsusi rolu olan Suqovuşan bəndində də təmir işlərinə başlanılıb. Birinci mərhələdə Suqovuşan bəndinin mexaniki avadanlıqları, suburaxıcı qurğuları, seqment qapıları, eləcə də 5,2 kilometr uzunluğunda magistral kanal təmir olunacaq. İkinci mərhələdə uzunluğu 22 kilometr olan Tərtərçay Sol Sahil, üçüncü mərhələdə isə uzunluğu 70 kilometr olan Tərtərçay Sağ Sahil kanalları təmir və bərpa ediləcək. Təmir işlərinin birinci mərhələsi bu ilin sonunadək başa çatdırılacaq. İkinci mərhələnin bu il başlanması və gələn il yekunlaşdırılması nəzərdə tutulur. Üçüncü mərhələ üzrə də işlər aparılır. Təmir-bərpa işləri nəticəsində ümumilikdə 96 min 200 hektar əkin sahəsinin su təminatı yaxşılaşacaq.

Qeyd edək ki, 1976-cı ildə istismara verilmiş Suqovuşan su anbarı Tərtərçay və Turaqaçay çaylarından daxil olan sular hesabına formalaşır. Ümumi həcmi 5,86 milyon kubmetr olan su anbarından Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam, Ağcabədi rayonlarının ümumilikdə 96 min 217 hektar torpaq sahələrinin suvarma suyu ilə təmin olunması nəzərdə tutulmuşdu. Lakin 30 il əvvəl baş vermiş Qarabağ müharibəsi nəticəsində Suqovuşan su anbarı işğal olunduğundan torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı. Bununla yanaşı, suyun buraxılmaması çayda kəskin ekoloji problemlərə səbəb olmuşdu. Suqovuşanın işğaldan azad edilməsi ərazidə ekoloji tarazlığın bərpası ilə yanaşı, uzun illərdən bəri su təminatı çətin olan ərazilərə suyun verilməsinə, burada gələcəkdə əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə təminat yaratmışdır.

İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahından verilən məlumata görə, Laçın rayonu işğaldan azad olunduqdan sonra içməli su təchizatı sistemlərinin operativ şəkildə bərpasına başlanılıb. Rayon ərazisində xidməti vəzifələrini yerinə yetirən şəxsi heyətin, eləcə də tikinti-quraşdırma işlərinə cəlb olunmuş mülki əhalinin dayanıqlı içməli su təminatı məqsədilə su mənbələri, magistral kəmərlər və anbarlarda zəruri işlər görülür.

Laçın rayonundakı içməli su mənbələri işğal dövründə istifadəyə yararsız vəziyyətə salındığından "Azərsu" ASC-nin mütəxəssisləri tərəfindən mənbələrə baxış keçirilib və bulaqlardan yaşayış məntəqələrinə suyun verilməsi qərara alınıb. Su mənbələrindən götürülən analizlər müsbət nəticələr verib. Bulaqlardan obyektlərə ümumilikdə 13 kilometr uzunluğunda müxtəlif diametrli su xətləri çəkilib və ərazidə fəaliyyət göstərən obyektlər dayanıqlı içməli su ilə təmin olunub. Eyni zamanda zərurət yarandıqda maşınlarla suyun daşınmasını təmin etmək üçün 3 nöqtədə sudoldurucu qüllələr quraşdırılıb. Hazırda Kəlbəcər Sukanal Sahəsi tərəfindən Laçın rayonuna xidmət göstərilir.

Qeyd edək ki, "Azərsu" ASC tərəfindən Laçın rayonu ilə yanaşı, Şuşa və Kəlbəcər şəhərlərində, Hadrut, Talış və Suqovuşan qəsəbələrində də fasiləsiz xidmət təşkil olunub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Pakistanla iqtisadi əlaqələrin genişləndirilməsi müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda səfərdə olan Pakistanın müdafiə istehsalatı naziri xanım Zobaida Cəlalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Pakistanın müdafiə istehsalatı naziri xanım Zobaida Cəlal Azərbaycanla siyasi-iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib, ölkəsinin biznes və investisiya mühiti ilə bağlı məlumat verib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dost Pakistanla iqtisadi əlaqələrimizin genişləndiyini vurğulayıb. Bildirilib ki, hazırda tərəflərin müzakirə etdiyi Azərbaycan və Pakistan arasında preferensial ticarət sazişinin imzalanması iqtisadi-ticarət əlaqələrimizin inkişafına əlavə imkanlar yaradacaqdır.

Görüşdə tranzit-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası və s. barədə fikir mübadiləsi aparılıb.

## Zəngilanın Ağalı kənd sakinləri üçün təşkil olunmuş biznes təlimlər başa çatıb

İşğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinin sakinlərinin doğma kəndlərinə qayıtdıqdan sonra məşğulluğunu təmin etmək və sahibkarlıq fəaliyyətinə başlamalarına dəstək məqsədilə kənd sakinləri üçün təşkil olunmuş biznes təlimləri başa çatıb.

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Zəngilan Rayon İcra Hakimiyyətinin birgə əməkdaşlığı çərçivəsində bir ay davam edən biznes təlimlərində 30 nəfər Ağalı kənd sakini iştirak edib. KOBİA-nın təlimçiləri tərəfindən təlim iştirakçılarına sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə ətraflı məlumat verilib, onlar biznes fəaliyyəti üçün zəruri biliklərə yiyələniblər.

Növbəti mərhələdə Ağalı kənd sakinləri avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. sahələr üzrə özünüməşğulluq proqramı çərçivəsində Dövlət Məşğulluq Agentliyi tərəfindən müvafiq avadanlıqlarla təmin olunacaqlar.

## Azərbaycanın mobil və ya elektron rezidenti olmaq üçün 21 ölkədən müraciət edilib

Azərbaycanın mobil və ya elektron rezidenti olmaq üçün indiyədək Rəqəmsal Ticarət Qovşağına 21 ölkədən müraciət edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının rəhbəri Məsumə Talıbova deyib. O bildirib ki, müraciət edən ölkələr sırasında Türkiyə, Pakistan, İngiltərə, ABŞ, Estoniya, Hindistan və digərləri yer alır. Həmçinin müraciətlərin 10 faizi Türkiyə tərəfindən olub və ilk elektron rezident də Türkiyə vətəndaşına aiddir.

## Ağdam Sənaye Parkında sosial zonanın təşkili yekunlaşıb

Məlum olduğu kimi, Qarabağın dirçəldilməsi prioritetinə uyğun olaraq, regionun sənaye potensialının reallaşdırılması, ölkə iqtisadiyyatına reinteqrasiyası, əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 28 may tarixli fərmanı ilə Ağdam Sənaye Parkı yaradılıb.

Sənaye Parkı Qarabağın ölkəmizin sənaye mərkəzlərindən birinə çevrilməsində və bölgədə əhalinin məşğulluq səviyyəsinin artırılmasında mühüm rol oynayacaq.

Ağdam Sənaye Parkında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində işlər mərhələli şəkildə həyata keçirilir və artıq Sənaye Parkında sosial zonanın təşkili yekunlaşıb.

Parka ayrılmış 190 hektar ərazinin 74 hektarı artıq minalardan təmizlənib, elektrik enerjisi və su təchizatı sistemi qurulub.

Sənaye Parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kV-luq elektrik xətti çəkilib və 630 kV-luq komplekt transformator məntəqəsi quraşdırılıb. Belə ki, işğaldan azad olunduqdan sonra Ağdam şəhərində ilk elektrik enerjisi və su təchizatı sistemi Ağdam Sənaye Parkının ərazisində quraşdırılıb.

Sənaye Parkının təşkili işləri davam edir.

## Cəbrayıl-Hadrut avtomobil yoluna asfalt döşənir

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna asfalt-beton örtüyünün döşənməsi işlərinə başlanılıb.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Yolun uzunluğu 39,7 km-dir.

Avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolun hərəkət hissəsi 14 metrdir.

Yol boyunca suların ötürülməsini təmin etmək məqsədi ilə 38 dairəvi boru və 7 düzbucaqlı su keçidi, həmçinin tikilən yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə 11 yolaltı keçidin tikintisi də icra olunur. Artıq layihə üzrə nəzərdə tutulan 12 dairəvi boru və 5 yolaltı keçidin inşası yekunlaşıb.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-ə yaxın yaşayış məntəqəsini əhatə edəcək.



# Azərbaycanın islahat modeli nümunəvi innovativ təcrübə kimi qəbul olunmuşdur

Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə ölkəmizdə reallaşdırılan iqtisadi islahatlar konseptual işlək model kimi dəfələrlə qlobal miqyasda müsbət qarşılanmış və yüksək qiymətləndirilmişdir.




Aparılan islahatların dayanıqlılığının və davamlılığının bariz nümunəsi olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Azərbaycanda dizayn edilən və gerçəkləşdirilən "İqtisadi İslahatların İdarəedilməsi Modeli"ni qlobal miqyasda nümunəvi innovativ təcrübə olaraq rəsmi platformasında göstərmişdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) bu mövzuya həsr edilmiş konfrans keçirilmişdir.

Qeyd edək ki, OECD demokratiya və bazar münasibətli iqtisadiyyat prinsiplərini qəbul edən inkişaf etmiş ölkələri özündə birləşdirən nüfuzlu beynəlxalq təşkilatdır. 1961-ci ildə yaradılan bu qurumun 36 üzvü var. OECD-yə daxil olan ölkələrin əksəriyyəti çox yüksək İnsan İnkişafı İndeksinə sahib yüksək gəlirli ölkələrdir, təşkilatın özü isə rəsmi BMT müşahidəçisidir. Təşkilat üzv ölkələrin müxtəlif nisbətdə olan dəstəyi ilə maliyyələşdirilir və 2017-ci ildə ümumi büdcəsi 374 milyon ABŞ dolları olmuşdur.

İİTKM-nin icraçı direktoru Vüsal Qasımlı bildirir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan dərin və kompleks iqtisadi islahatlar beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə qlobal miqyasda təsdiq olunmuş və Azərbaycan dünyanın ən islahatçı ölkələrindən biri kimi qəbul edilmişdir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən Azərbaycandakı "İqtisadi İslahatların İdarəedilməsi Modeli"nin nümunəvi innovativ təcrübə kimi rəsmən qəbul olunması hamımıza qürur bəxş edən vacib amildir.

İİTKM-nin ekspertləri belə hesab edirlər ki, qurumun Azərbaycan iqtisadi modelinə verdiyi yüksək qiymət ölkəmizin beynəlxalq imicini daha da yaxşılaşdıracaq, investor inamını artıracaq, beynəlxalq və regional miqyaslı layihələrin həyata keçirilməsində mövqelərimizi nəzərəçarpacaq dərəcədə gücləndirəcək. V.Qasımlı deyir: "Bu həm də postkonflikt quruculuğu və regional inkişafda Azərbaycanın aparıcı roluna əlavə bir stimuldur".

İİTKM-nin Strateji planlaşdırma və inkişaf departamentinin rəhbəri Ayaz Müseyibova görə, "İqtisadi İslahatların İdarəedilməsi Modeli"nin innovasiya təbiəti kimi çeviklik, məsuliyyətlilik, inklüzivlik, proqnozlaşdırma və qlobal istifadəni özündə birləşdirən xüsusiyyətləri nümunəvi təcrübə olaraq müsbət qarşılanmışdır. OECD-nin müvafiq platformasında ən yaxşı innovativ layihələr yayımlanır və burada əsas üstünlük Böyük Britaniya, Kanada və ABŞ kimi ölkələrə məxsusdur. Bu baxımdan iqtisadi islahatların ən nüfuzlu təşkilatlardan biri olan OECD tərəfindən innovativ təcrübə kimi qəbul edilməsi ölkəmizin günbəgün yüksələn nüfuzunun daha da artmasına xidmət edəcəkdir.

"İqtisadi İslahatların İdarəedilməsi Modeli"nin OECD-yə nümunəvi innovativ təcrübə kimi qəbul edilməsi üçün 2019-cu ildən müvafiq qurum ilə danışıqlar və müzakirələr aparılmış, bunun nəticəsi olaraq model OECD-nin "Dövlət Xidmətlərində İnnovasiyaların Observatoriyası" platformasında nümunəvi innovativ təcrübə kimi rəsmi olaraq yayımlanmışdır. OECD-nin rəsmi platformasında yayımlanan məlumatlarda modelin vətəndaş və biznes mərkəzli dövlət xidmətlərinin layihələndirilməsi və çatdırılması, islahatların aparılmasında əldə olunan nailiyyətlər təqdim edilmişdir. Model haqqında məlumatlar portalda ətraflı və strukturlaşdırılmış formada verilmişdir. Əlavə olaraq, model haqqında ümumi məlumatlar göstərilmiş və nümunəvi innovativ təcrübə kimi "azranking.az" portalında 19 işçi qrupu arasında kommunikasiyanın mərkəzləşdirilməsi məqsədi ilə "Rəqəmsal Kommunikasiya Platforması"nın yaradıldığı və digər vacib məlumatlar göstərilmişdir.

"İqtisadi İslahatların İdarəedilməsi Modeli"nin kommunikasiya platforması kimi ictimaiyyətdən asanlıqla rəy və ideya qəbul etməyə açıq olması, islahatlarla bağlı qərarların qəbulu üçün analitik informasiya dəstəyi aparılmasını asanlaşdırmaq məqsədilə bençmarkinq alətinin mövcudluğu, institusional çərçivə əsasında qurumlar arasında idarəetmə qabiliyyətinin artırılması, əməkdaşlıq və vahid kommunikasiya mənbələrindən istifadə imkanları kimi innovativ özəlliklər barəsində ətraflı məlumatlar qeyd edilmişdir.

Müvafiq model çərçivəsindəki proseslərin implementasiyası Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası tərəfindən birgə həyata keçirilmişdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Naxçıvan MR-də hər bir nəfərə düşən ÜDM-in həcmi 2,4 faiz artıb

Muxtar respublikada 2021-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 355 milyon 837 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 5097 manata çatıb.

## Dövlət xətti ilə kirayə verilən mənzillərin sayı 1180 olub

### İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə verilən kreditlərin sayı isə 36 min 331-dir

**İpoteka və Kredit Zəmanət Fondu dövlət xətti ilə zəmanət və subsidiyalar verilmiş kreditlərin məbləğini açıqlayıb.**

AZƏRTAC fonda istinadla xəbər verir ki, zəmanət və subsidiyalar verilmiş kreditin məbləği 234 milyon 198 min manatdır. Kirayəçilərin istifadəsinə 1180 yaşayış sahəsi verilib.

İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği də açıqlanıb.

İKZF-dən bildirilib ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək 36 min 331 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 1 milyard 964 milyon 3926 manatdır.

## Balakənli fermerlər indiyədək 277 ton quru tütün istehsal ediblər

Bu il Balakən rayonunun təsərrüfatlarında 300 hektar sahədə tütün əkilib.

Balakənli fermerlər cari mövsümdə 243 hektar sahədə "Virciniya botaniki", 57 hektarda isə yerli "İmmuniy" növlü tütün sortları yetişdiriblər. Hazırda rayonun təsərrüfatlarında tütün yığımı yekunlaşmaq üzrədir. Mövsümün əvvəlindən indiyədək sahələrdən 1331,2 ton yaş tütün yarpağı yığılıb.

Bu barədə AZƏRTAC-a Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Şahin Rəhimli məlumat verib.

Qurum rəsmisinin sözlərinə görə, bu günədək emal məntəqəsində, eləcə də fərdi təsərrüfatlarda dərilmiş yaş tütün kütləsindən 277 ton quru tütün istehsal olunub. Qurudulmuş tütünün 233,5 tonu istehsalçılar tərəfindən tədarük məntəqələrinə satılıb və hazırda proses davam edir.

# Ağdam mədəni ruhunu özünə qaytarır

## Erməni vandallığını faktlarla ifşa edən "Sara" romanı isə ilk təqdimat kitabı oldu





Kim bilərdi ki, 27 il ərzində "ruhlar şəhəri" kimi səssizliyə, xarabalığa çevrilən Ağdam bir anda dirçələ, doğrula bilər?!

Azadlığına qovuşan şəhərdə çox qısa zamanda quruculuq, bərpa işlərinə başlanar, Qarabağın yeni və uğurlu təməl daşı da məhz bu şəhərdə qoyular?!

Kim deyə bilərdi ki, düz 30 il erməni talançıları tərəfindən torpağının altı üstünə çevrilən və görənləri dəhşətə gətirən şəhər bu gün artıq möhtəşəm mədəniyyət tədbirlərinə evsahibliyi edər?!

### Ağ şəhərin özü əsir düşmüşdü...

Bəli, möcüzə kimi səslənən bütün bu hadisələr reallıqda sürətlə gerçəkləşdirilir və Ağdamın əvvəlki şan-şöhrəti özünə qaytarılır.

Elə o gün də işğaldan azad olunmuş Şahbulaqda bir yerə yığışmışdı Azərbaycanın, Ağdamın mədəniyyət, ədəbiyyat adamları, ziyalıları...

Yeni Ağdamın tarixində ilk dəfə həyata keçiriləcək kitab təqdimatının həyəcanı içərisində idilər...

Yazıçı-jurnalist İlqar Rəsulun bir neçə il erməni girovluğunda qalmış azərbaycanlı qızın həyatından bəhs edən "Sara" romanı oxucuların ixtiyarına verilirdi...

O dəqiqələrdə hər kəs susmuşdu, acı hıçqırıqlar içərisində gözü ilə gördüyü, şahidinə çevrildiyi, özünün də yaşadığı erməni müsibətini anladırdı Sara: "...Ermənilər tonqalın ətrafında qışqırışaraq göyə güllə atıb şənlənirdilər. Arada araq şüşəsini tonqalın içində dikəlib vurnuxan girova tolazlayır, türkləri söyür, ucadan gülürdülər. Tonqalda tərpəniş duyulmayanda sıraya düzülmüş kişiləri yenə döyməyə başladılar. Yıxılanı güllələyirdilər. Ona görə nə qədər vursalar da, hamısı ayaq üstdə qalmağa çalışırdı..."

Gənc qız gördüyü, şahidi olduğu, yaşadığı tükürpədici müsibətdən danışdıqca uşaq, qoca, qadın, kişi bağırtıları, dəhşətli zarıltılar bürüyürdü ətrafı...

Çarəsiz insan qışqırtıları Ağdamın qulaqlarında da ağrılı haray kimi səslənir, ona illər əvvəl yaşadığı acıları bir daha hiss etdirirdi...

...Ağ şəhərin o ağ günlərindən heç əsər qalmamışdı. Zülmət kimi qara gecələr çökmüşdü bəyaz damlarının üzərinə...

Neçə gün idi ki, Ağdama üz tutan saysız-hesabsız xocalılının meyitlərini daşıyan qara maşın karvanlarının ardı-arası kəsilmirdi. Həmin maşınlar bir-bir gəlib Cümə məscidinin yuyat yerinin qarşısında dayanır, qandonduran işgəncələrlə öldürülən insanların meyitləri Ağdam camaatı tərəfindən boşaldılırdı. Şəhərdə elə bir adam yox idi ki, göz yaşları tökə-tökə, erməni vəhşiləri tərəfindən dəhşətli hala salınmış meyitlərin yuyulmasında, kəfənlənməsində, basdırılmasında iştirak eləməsin...

1992-ci ilin 26 fevralından erməni əsirliyində, girovluğunda qalan xocalılılar da azad edilərək ilk dəfə Ağdama gətirilmiş, erməni quldurlarının zalım əməllərinin canlı şahidləri əsirlikdə başlarına gətirilən zülmləri də elə ilk dəfə Ağdama danışmışdılar...

Cəmi bir il sonra isə Ağdam özü erməni əsirinə çevrilmişdi. Barbar düşmən indi də ağ şəhərə qənim kəsilmiş, Ağdamı başdan-başa çapıb-taladıqdan sonra onun daşını, torpağını da daşımışdı. Bununla da ürəkləri soyumamış məzarlara hücum çəkmişdilər, Şəhidlər xiyabanını, Qarağacı qəbiristanlığını yerlə-yeksan edib şumlamışdılar...

Tamamilə tari-mar olmuş Ağdam bir daha dirçələcəyinə, ağ günlər yaşayacağına ümid qalmayan xarabazara çevrilmişdi...

Amma başdan-başa yandırılan şəhərin bomboz külləri altında közərən qurtuluş işartıları heç zaman öləziməmişdi...

### Təqdimatın rəmzi mənası vardı

Bəli, Ağdam o müsibətli anları "Sara" romanının təqdimatında bir daha hiss etmişdi, amma bu dəfə ürəyində həmin günahsız insanların, özünün qisasının alınmasından doğan bir yüngüllük də duymuşdu...

Rayonun işğaldan azad edilmiş hissəsindəki Şahbulaq qalasında keçirilən ilk kitab təqdimatı Azərbaycan Yazıçılar Birliyi və Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi və "Gələcəyə Baxış" Avropaya İnteqrasiya İctimai Birliyi, Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyasının təşkilatçılığı ilə baş tutdu. Tədbirdə ictimai-siyasi xadimlər, yazarlar, QHT və media rəhbərləri, jurnalistlər, şəhid ailələrinin üzvləri, qazilər iştirak etdilər.

Giriş hissəsində "Müharibə - yadları, özgələri, ədavətliləri belə bir səngərə yığıb bir-birindən ötrü canından keçməyə hazır olan doğmalara çevirəndir" yazılan "Sara" romanının ilk kitab təqdimatı kimi məhz Ağdamda oxucuların ixtiyarına verilməsinin xüsusi rəmzi mənası olduğunu söyləyən müəllif İlqar Rəsul bildirir ki, işğaldan azad olunan rayonların bütün sahələrdə dirçəldilməsi olduqca sevindiricidir. O cümlədən də Ağdam rayonu bəzi tədbirlərin keçirilməsində yetərincə aktivdir. Vandal düşmənin bir salamat bina belə qoymadığı şəhərdə qısa zaman içərisində mədəniyyət tədbirlərinin keçirilməsi böyük uğurdur.

Özü də Ağdamda doğulub böyüyən, lakin doğma yurdundan illərlə ayrı yaşamaq məcburiyyətində qalan İlqar Rəsul deyir ki, torpaqlarımızın işğaldan azad olunacağına aradan keçən bu 30 ilə yaxın müddətdə bir gün belə şübhə etməyib.

Hesab edib ki, mütləq o torpaqlar işğaldan azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq: "O baxımdan torpaqların azad edilməsi mənim üçün nə qədər sevindirici olsa da, qətiyyən təəccüblü olmadı. Hər zaman fikirləşirdim ki, biz görsək də, görməsək də, o torpaqlar mütləq bir gün azadlığına qovuşdurulacaq. Düzdür, böyüklərimizə bu xoş günləri görmək nəsib olmadı, nisgilli köçdülər bu dünyadan... Amma xoş qismətdir ki, biz bu günləri görə bildik. Hesab edirəm ki, işğaldan azad olunmuş şəhərdə ilk dəfə elə o şəhərin yazıçısının əsərinin təqdimatının keçirilməsinin özü də böyük xoşbəxtlikdir. Bizə bu şəraiti yaratdığına görə Ali Baş Komandana, Azərbaycan əsgərinə minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin".

Bundan əvvəl 4 kitabının işıq üzü gördüyünü, amma heç biri üçün təqdimat keçirmədiyini deyən İlqar Rəsul "Sara"nın təqdimatının Ağdamda olacağını duyduqda böyük məmnuniyyət, qürur hissi ilə bunu gerçəkləşdirmək istəyib: "Bu, işğaldan azad edilmiş rayonumuzda ilk kitab təqdimatı idi. O baxımdan da adi təqdimat deyildi, qeyri-adi, rəmzi bir xarakter daşıyırdı. Buna görə də həmin təqdimatdan çox qürurla danışıram".

### 26 ildir gecikən romana Zəfər məntiqi yekun vurdu

Fasilələrlə üzərində 26 ildir işlənən "Sara" romanını hansısa qeyri-adi səbəbdən yekunlaşdırmaq mümkün olmurdu. Demə, qismətində sonluğunun Zəfərlə bitirilməsi, işğaldan azad olunan torpaqlarda ilk kitab kimi təqdimatının olacağı varmış...

Bu barədə danışan İlqar Rəsul məlumat verir ki, "Sara" romanı əslində 1995-ci ildən yazılmağa başlanıb. Hekayə kimi yazılıb, sonra povest halına salınıb: "Amma hər zaman düşünürdüm ki, bu mütləq roman olmalıdır. Lakin onu da düşünürdüm ki, roman olması üçün Qarabağ müharibəsinin zəfərimimzlə bitməsi mütləqdir. 2020-ci ildə kitab yekunlaşmaq üzrə idi. Qismət elə gətirdi ki, bu müddətdə torpaqlarımız da işğaldan azad oldu və mən romanı qələbə ilə yekunlaşdıra bildim".

Yazıçı qeyd edir ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Zəfər qazanması romanda struktur dəyişikliklərə səbəb olub. Roman əvvəl yazıldığı süjet xəttində qalsa da, başlanğıcına və sonuna əlavələr edilib: "Sara" müqəddəs şəhərə, Şuşaya hücumla başlayır və illərdir xalqımızın arzusunda olduğu Zəfər paradı ilə yekunlaşır. Yəni Zəfər romana arzuladığımız əlavəni gətirdi. Bu iki əlavəni zaman, hadisələr və qazandığımız qələbə diktə etdi. Qalan süjet xətti isə olduğu kimi qaldı".

Romanın əsas süjet xətti Sara adlı girov düşmüş gənc bir azərbaycanlı qızın taleyi ilə bağlıdır. Həmin xəttin üzərinə Azərbaycan dövləti, xalqı üçün önəmli olan tarixi hadisələr yığılıb ki, oxucular bu qızın həyatı ilə yanaşı, eyni zamanda erməni vandallığı, onların azərbaycanlıların başına gətirdikləri müsibətlərlə bağlı tarixi faktlarla da tanış olsunlar. Əsərin yazılmasında real faktlardan, tarixi sənədlərdən, rəsmi qurumların və beynəlxalq təşkilatların hesabatlarından, keçmiş döyüşçülərin, eləcə də müharibə zamanı Ermənistan ordusu tərəfindən əsir və ya girov götürülmüş insanların ifadələrindən istifadə olunub. "Sara" romanında adıçəkilən insanların çoxu gerçək obrazlardır. Əsər yazılarkən onların bir qismi artıq həyatda olmadığından ailə üzvləri, qohumları ilə söhbətlər aparılıb. Əsaslı səbəblərə görə bəzi obrazların adı dəyişdirilib. Bu roman yazıçı təxəyyülü ilə bərabər, gerçək tarixi faktların üzərində qurulub.

Müəllifin fikrincə, adətən yalnız quru faktlardan, yaxud da ki, ümumi müharibədən ibarət olan romanlar o qədər də maraqlı olmur. Amma roman bir insanın taleyinin üzərində qurulanda daha cəlbedici olur və oxucu rahat oxuyub mənimsəyir: "O baxımdan deyərdim ki, "Sara" romanı orada təsvir olunan işgəncə faktlarının ağırlığına baxmayaraq, oxucu üçün kifayət qədər maraqlı olacaq".

### "Kitablar yazılmalı, filmlər çəkilməlidir ki, xalq keçmişini unutmasın"

"Ağdamı, doğulub böyüdüyün şəhəri dağılmış vəziyyətdə görmək çox ağrılı idi" söyləyən İlqar Rəsul bildirir ki, doğma şəhərinə təqdimata gedəndə öz həyətlərinə də baş çəkə bilib: "Baxdım ki, evimizin bir divarı, eyni zamanda böyük pilləkəni yarıuçuq halda da olsa, qalır. Bu xarabalığın, ümumi faciənin, bədbəxtçiliyin içərisində təkcə sevindirici o idi ki, doğma şəhərində gedib yarıuçuq da olsa, evinin divarını, pilləkənini tapırsan. Evimizdən heç bir əsər qalmadığı fikri ilə ora yollanıb ondan kiçik bir nişanə tapmaq məni toxdatdı... Əslində, o anda duyduğum hisslərimi ifadə etməyə çətinlik çəkirəm, bu, tam sevinc də deyildi və elə həm də sevinc idi...

Düşünürəm ki, Ağdamın əvvəl və sonradan xarabaya qalmış vəziyyətini görən heç kəs onu ölənə qədər unuda bilməyəcək. Ömrümüzün əsas hissəsini doğulub böyüdüyümüz yerlərsiz keçirdik. Yəqin ki, bu, taleyimizdə, həyatımızda öz izini buraxdı. Amma buna da şükür, kimlərsə görmədi, nisgilli köçdülər bu dünyadan. Bu baxımdan ümumi faciənin içərisində bizi nisbətən xoşbəxt nəsil hesab etmək olar".

İlqar Rəsul sonda onu da əlavə edir ki, Azərbaycanda dövlət, Ali Baş Komandan, əsgərlər öz işlərini görüb, hərbi-siyasi müstəvidə Qələbə qazanıb, torpaqlarımız işğaldan azad edilib. Qarabağda, Şərqi Zəngəzurda quruculuq işlərinə, erməni vandallarının dağıtdığı tarixi, mədəni, dini mədəniyyət abidələrimizin bərpasına başlanılıb. Eləcə də yaradıcı insanlar öz sözlərini deməli, kitablar yazılmalı, filmlər çəkilməlidir ki, xalq keçmişini unutmasın və gələcəyə hazır olsun.

Bu gün təkcə tikinti və digər sahələrdə çalışan insanlar yox, mədəniyyət, incəsənət, ədəbiyyat adamları da sevinclə Ağdama üz tutur, yeni uğurlarını bu qədim Qarabağ yurdu ilə bölüşməyə tələsir...

Görənlərin dəhşətlə "Qafqazın Xirosiması" adlandırdığı Ağdamda artıq rəsm sərgiləri, kitab təqdimatı keçirilir və daha neçə-neçə mədəniyyət tədbirlərinin keçiriləcəyi də gözlənilir...

Bütün bunlar isə onu göstərir ki, düşmən nə qədər çalışsa da, vandallıqlara əl atsa da, Ağdamın mədəni, mənəvi ruhunu sındıra, məhv edə bilməyib...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Pandemiya nə zaman bitəcək?

## Ekspertlər bəşəri bəlaya son qoymağın yeganə yolunun hələ ki, yalnız peyvənddən keçdiyini söyləyirlər

2019-cu ilin əvvəlindən həyatımıza daxil olan COVID-19 pandemiyasının bitəcəyi ilə bağlı ara-sıra xoş xəbərlər yayılsa da, virusun yeni-yeni ştamlarının ortaya çıxması bunun gerçək olmasına imkan vermir. Elə buna görədir ki, "pandemiya nə zaman bitəcək?" sualına verilən cavab bu gün hər kəsi maraqlandıran ən vacib məsələlərdəndir. Konkret tarixlərin açıqlanmaması bu qlobal problemin hələ bir müddət davam edəcəyini söyləməyə əsas verir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus pandemiyanın bitməsinə hələ çox vaxtın qaldığını deyib. O, pandemiyanın bitmə tarixinin insanların davranışından asılı olması qənaətindədir: "Dünya virusla vidalaşmağı seçəndə pandemiya bitəcək. Bu, bizim əlimizdədir. Həftə ərzində dünya üzrə təxminən 50 min doza vaksin vurulur, bu isə pandemiyanın bitməsi üçün kifayət deyil".

### Hamı peyvənd olunmadıqca virusun yeni növləri ortaya çıxacaq

Gebreyesus bir çox yerdə vaksinləşdirmə səviyyəsinin iki faizdən az olduğunu, dünya ölkələrinin yalnız 2/3 hissəsində əhalinin əksəriyyətinə vaksinin vurulduğunu nəzərə çatdırıb. ÜST-ün məqsədi isə bu ilin sonuna qədər bütün dünya ölkələrində əhalinin ən azı 40 faizinin, gələn ilin ortasına qədər isə 70 faizinin peyvəndlənməsinə nail olunmasıdır.

Amerikalı epidemioloq Larry Brilliant da bədbin proqnozlar verib. Hələ "Omikron" ştamına yoluxmanın baş verməməsindən əvvəl açıqlama verən tanınmış epidemioloq pandemiyaya son qoymağın yeganə yolunun peyvənddən keçdiyini deyib. O, əlavə edib ki, dünyada 200-dən çox ölkədə hamı peyvənd olunmadıqca virusun yeni növləri meydana çıxacaq.

Pandemiya tarixçisi, Rutgers Universiteti və Cənubi Karolina Universitetinin professoru Nukhet Asset COVID-19 pandemiyasının nə qədər davam edəcəyinin və ya nə vaxt nəzarət altına alına biləcəyinin hələ bilinmədiyini söyləyib: "Yaşadığımız bu prosesdə dövlətlər öz risk qiymətləndirmələrini edir və buna uyğun olaraq qorunma siyasətləri həyata keçirirlər. Hər bir dövlət öz sərhədləri daxilində virusla mübarizə aparsa da, bu səylər uzunmüddətli perspektivdə qlobal böhranı dayandırmaq üçün kifayət etməyəcək. Biz hamımızı narahat edən qlobal təhlükədən danışırıq. O zaman yadda saxlamaq lazımdır ki, bu, yalnız milli dövlətlərin səyləri ilə həll edilə bilən bir problem deyil. Qlobal miqyasda olan problem beynəlxalq səy, həmrəylik və əməkdaşlıq tələb edir. Pandemiyanın ilk bir neçə ayında belə addımlar atılsa da, son dövrlərdə virusun yayılmasına nəzarət edə bilməyən ölkələr bu cür böyük miqyaslı səyləri puç etdi".

### İnsanların 74 faizi pandemiyanın gələn il də davam edəcəyini güman edir

Nukhet Asset pandemiyanın artıq gündəlik həyatımıza təsir etdiyini açıqlayıb. Öz fikrini əsaslandırmaq üçün misallar göstərən alim deyib ki, artıq ABŞ-da böyük şəhərlərdən immiqrasiya başlayıb. Yaz aylarında karantin günlərində evlərində qalmaq məcburiyyətində olan ailələr daha rahat hərəkət edə biləcəkləri şəhərətrafı qəsəbələrə köçürlər. Evdən işləmək üçün rəqəmsal kommunikasiya texnologiyalarından istifadə nəticəsində artıq distant iş dünyanın bir çox sektorunda tətbiq olunur: "Əslində, bu iş üsullarının pandemiyadan sonra da davam edəcəyini söyləmək olar. Təhsil sahəsində də oxşar dəyişiklik olub və görünür ki, distant təhsil getdikcə daha fəal istiqamətlərdən biri olacaq. Pandemiya gündəlik həyatımızın bir çox sahələrinə təsir edərək iş, sosiallaşma, səyahət və istehlak vərdişlərimizi dəyişib".

Türkiyənin tanınmış professoru Osman Müftioğlu isə beynəlxalq araşdırma şirkəti olan IPSOS tərəfindən dərc edilmiş son məlumatlara əsaslanaraq insanların artıq pandemiyanın ən təhlükəli mərhələlərindən birinə - "Qəbul fazası"na keçdiyini söyləyib. Bu araşdırmada iştirak edən insanların 74 faizi pandemiyanın 2022-ci ildə davam edəcəyini artıq qəbul edib.

O.Müftioğlu əlavə edib ki, hər 4 nəfərdən 3-ü COVID-19 pandemiyasının 2022-ci ildə də davam edəcəyini düşünür. Daha əhəmiyyətlisi odur ki, hər 3 nəfərdən 2-si ömürlərinin qalan hissəsində başqa epidemiyalarla qarşılaşacağını güman edir: "Bir sözlə, vəziyyət geniş ictimaiyyət üçün çox ciddi anlam kəsb edən bir məqama gəlib çatdığımızı göstərir. IPSOS deyir ki, fərdlərin yarısı digər insanların "sosial uzaqlaşma" qaydasına əməl etmədiyini söyləyir. Digər tərəfdən, 26 faiz bu qaydaya nadir hallarda əməl etdiyini bildirir. Cəmiyyətin 100-də 46-sı "maska taxırsan?" sualına ya "heç vaxt", ya da "nadir hallarda" cavabını verir. O ki qaldı pandemiya ilə mübarizənin gedişatına, burada da az qala "qarpız kimi ortadan parçalanmaq" vəziyyəti var. Cəmiyyətin 33 faizi "işlər yaxşı gedir, mübarizədə uğur qazanırıq", 48 faizi "pis gedir, mübarizə uğursuz olur" anlayışı ilə yaşayır. Eyni araşdırmada insanların 74 faizi pandemiyanın 2022-ci ildə davam edəcəyini artıq qəbul edib. Bu, son deyil! Daha pisi var. Cəmiyyətin 66 faizi COVID-19 pandemiyasının ardınca digər pandemiyaların olacağına inanır. Hər 10 nəfərdən 7-si həyatlarının bu pandemiyaya görə monotonlaşdığını açıqlayıb. Cəmiyyətin 62 faizi pandemiyaya görə "sosial çevrəsini itirdiyini" hiss edir".

### Pandemiya depressiyası yaranıb

Türkiyənin Üsküdar Universitetinin Sosiologiya kafedrasının müdiri, sosiologiya elmləri doktoru, professor Əbülfəz Süleymanlı hesab edir ki, COVID-19 pandemiyası ortaya çıxdığı gündən bəri yayıldığı bütün ölkələrdə insanların sağlamlığını təhdid etməklə yanaşı, insanlığı bir növ məcburi sosial təcrid prosesinə sövq edib. Bununla da tənhalığın, xüsusilə də tənhalıq hissinin artmasına səbəb olub.

Sosioloqun sözlərinə görə, insanlarda tənhalıq hissinin artması pandemiyadan əvvəl də müşahidə olunurdu. Lakin pandemiya dövründə tətbiq olunan sərt karantin tədbirləri tənhalıqla bağlı yeni vəziyyət və problemlər meydana gətirib. Pandemiya böhranının bu qədər qorxulu olmasının səbəblərindən biri də insanların karantində qalması hissindən savayı, evlərinin divarları arasında sıxışıb qalmasıdır. Evdə tək qalmaq və ya tək ölmək qorxusu insanlarda travmatik təsirlər yaradaraq dərin bir pandemiya depressiyasına səbəb olub. Bu faktı dünyanın müxtəlif ölkələrində aparılan sosial tədqiqatlar da sübut edir.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***







## ◆Dünya gündəmi

# Həyəcanlı proqnoz

## Aktual vaksinlər "Omikron" qarşısında aciz qala bilər

Alimlərin "gördüklərimizin ən pisi" kimi qiymətləndirdiyi koronavirusun yeni "SARS-CoV-2 B.1.1.529" variantının geniş yayılması artıq bir çox ölkənin sərhədlərinin bağlanmasına, uçuşların ləğv edilməsinə və dünya miqyasında bazarların səhm qiymətlərinin düşməsinə səbəb olub.

ÜST-ün fövqəladə toplantısında "Omikron" adı verilən yeni ştam çox sayda mutasiyalar edir və bunların bəziləri narahatlıq doğurur. Bu ştamlar yüksək yoluxucudur. Onlar daha çox yayılır, ağır xəstəliklərə səbəb olur və orqanizmin immun reaksiyasından yayınır. Mövcud vaksinlər isə demək olar ki, virusun yeni variantına qarşı daha az effektivdir. Bu halda "Omikron"un yayılması üçün şərait yaranır.

### Vaksin nəslinin dəyişməsi tələb oluna bilər

ABŞ-ın Moderna biotexnologiya şirkətinin rəhbəri Stefan Bansel hesab edir ki, COVID-19-a qarşı mövcud peyvəndlər koronavirusun "Omikron" variantı ilə mübarizədə o qədər də effektiv deyil. Bu barədə o, Britaniyanın "Financial Times" qəzetinə müsahibəsində bildirib.

"Hesab edirəm ki, əhəmiyyətli bir tənəzzül olacaq. Yeni variantın nə qədər güclü olduğunu bilmirəm. Bunun üçün kifayət qədər məlumat yoxdur. Amma söhbət etdiyim bütün alimlər "yaxşı bir şey gözləmirlər", - deyə Bansel vurğulayıb.

Amerikalı alimin fikrincə, gələn il vaksin nəslinin dəyişməsi tələb oluna bilər. İndiyə qədər əksər ekspertlər koronavirusun bu qədər mutasiya edilmiş variantının yalnız bir və ya iki il sonra ortaya çıxacağını düşünürdülər. Ancaq bu, daha tez oldu.

### İnsanlar üçüncü peyvəndi alsalar, müdafiə daha güclü olacaq

Almaniya istehsalçısı BioNTech-in peyvəndi ehtimal ki, koronavirusun "Omikron" variantına yoluxma halında da xəstəliyin ağır gedişindən qorumağa qadirdir. Bu barədə şirkətin həmtəsisçisi, türkəsilli alim Uğur Şahin "Röyter" agentliyinə müsahibəsində bildirib. "Biz onu əsas tuturuq ki, insanlar üçüncü peyvəndi alsalar, bu müdafiə üçün daha güclü olacaq", - deyə U.Şahin vurğulayıb.




"The Street Journal" nəşrinə verdiyi digər müsahibədə Uğur Şahin deyir: "Heç kəs özünəgüvəni itirməməlidir, əksinə, indi söhbət daha çox revaksinasiya keçirilməsindən gedir. "Omikron" daha çox yoluxmaya gətirib çıxara bilər, lakin koronavirusun digər variantları ilə mübarizədə olduğu kimi, BioNTech/Pfizer peyvəndi xəstəliyin ağır gedişatının qarşısını almağa qadirdir".

Türk alim qeyd edib ki, yeni varianta uyğunlaşdırılmış peyvəndin hazırlanmasına ehtiyac olub-olmayacağı yaxın həftələrdə, bəlkə də aylarda aydınlaşacaq. BioNTech hadisələrin bu cür inkişafına prinsipial olaraq hazırdır. "İlk bazar partiyasının, ilk 25-50 milyon dozanın istehsalı üçün bizə 100 günə yaxın vaxt lazım olacaq", - deyə U.Şahin bildirib.

Eyni zamanda Moderna şirkətinin rəqibi İsveçin AstraZeneca şirkətinin tərəfdaşı olan Oksford Universitetində mövcud vaksinlərin "Omikron" infeksiyasından doğan COVID-in ağır gedişatından qorumağa qadir olmadığının sübutunu görmürlər.

Oksford Universitetinin məlumatına görə, hazırda onun alimləri AstraZeneca şirkəti ilə birgə hazırladığı vaksinin "Omikron" infeksiyasına qarşı nə dərəcədə müdafiə etdiyini aydınlaşdırırlar. Ancaq lazım olsa, vaksinin yeni bir versiyasının yaradılması özünü çox gözlətməyəcək.

### Dünyada narahatlıq artır

CAR-da sürətlə yayılan koronavirusun yeni "SARS-CoV-2 B.1.1.529" variantı bütün dünyada böyük narahatlıq doğurur. Virusoloqlar, ilk növbədə, koronavirusun bu variantında çoxlu mutasiyaların olduğundan narahatdırlar. Onların sayı 32-dir. "Delta" variantının isə 8 mutasiyası var idi.

Məhz bu səbəbdən immun sisteminə koronavirusun bu variantına qarşı mübarizə aparmaq çətindir: o, sözün əsl mənasında immun hüceyrələrindən yayınır və "İmmune Escape" adlanan proses baş verir.

Kembric Universitetində kliniki mikrobiologiya üzrə professor Ravi Qapta deyir ki,"aşkar edilmiş mutasiyalar böyük narahatlıq doğurur". Hələ fevral ayında Qapta ilk laboratoriya analizləri ilə müəyyənləşdirmişdir ki, B.1.1.529 variantının mutasiyalarının ikisi virusun yoluxuculuğunu artırır və immunitet hüceyrələrinin onu tanımaq qabiliyyətinə mənfi təsir göstərir.

"UCL Genetics İnstitute" tədqiqat mərkəzinin rəhbəri professor Fransua Ballu da analoji narahatlığını bildirir. "Mən hər halda "Alfa" və "Delta" variantlarına nisbətən koronavirusun bu variantının neytrallaşdırıcı anticisimlər tərəfindən daha zəif tanınacağını gözləyirəm", - deyə ekspert vurğulayıb.

Buna baxmayaraq, virusun yüksək yoluxuculuğu xəstəliyin daha ağır formada keçəcəyinə dəlalət etmir.

### ÜST beynəlxalq daşımalar üzrə tövsiyələr verdi

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hesab edir ki, koronavirusun yeni "Omikron" ştamının peyda olması səbəbindən beynəlxalq səfərləri tam dayandırmaq lazım deyil. Ekspertlərin fikrincə, bu, yeni variantın yayılmasının qarşısını almayacaq, lakin həyat keyfiyyətinə mənfi təsir göstərəcək. Bununla əlaqədar olaraq, ÜST testlərin və karantinlərin tətbiqini, yoluxmaya nəzarəti gücləndirməyi tövsiyə edib.

Son vaxtlarda Cənubi Afrika Respublikası, Hong Kong və bir sıra Afrika ölkələrində yeni ştam aşkar edilib, daha sonra isə Avstraliya, Böyük Britaniya, Almaniya, İsrail, İspaniya, İtaliya, Niderland, Portuqaliya, Çexiya, İsveç və digər ölkələrdə yoluxma halları üzə çıxıb.

Son məlumata görə, rusiyalı senator, Əməkdar həkim Vladimir Kruqlı hesab edir ki, Afrikanın "Omikron" ştamı artıq Rusiyada mövcuddur, onun yayılmasının mənbəyi Misirdə olmuş turistlərdir. O, Misir Ərəb Respublikası ilə hava əlaqəsinin bağlanmasına çağırıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Qarabağın alban-qıpçaq tarixinə dair kitab nəşr olunub

**Tarixçi alimlər Ramin Əlizadə və Elnur Nəciyevin "Qarabağın alban-qıpçaq tarixinə dair" adlı kitabı nəşr olunub.**




"Azərbaycan Tarixçiləri" İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, layihə rəhbəri və ön sözün müəllifi AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Yaqub Mahmudovdur.

Yaqub Mahmudov kitaba yazdığı "Tarixi həqiqətə doğru gərəkli və uğurlu addım" adlı ön sözdə bu fikirləri bildirib: "Heç bir ilk mənbədə "Albaniya" sözünün önündə "Qafqaz" sözü yoxdur. Amma çar Rusiyası və sovet-bolşevik rejimi dövrlərində Azərbaycan Albaniya dövləti "Qafqaz Albaniyası" adı ilə təqdim edilib. Bundan başqa, o vaxt Albaniya tarixi və mədəniyyəti ilə bağlı araşdırmalarda "xristiandırsa, türk deyildir" prinsipi də hakim mövqe tutub. Məqsəd isə aydın idi: Azərbaycan xalqının ulu babaları olan türk boylarının rolunu Albaniya tarixindən silib atmaq! Ovaxtkı saxtakarlığı hazırda erməni millətçiləri və onların havadarları davam etdirir və iddia edirlər ki, guya müasir Azərbaycan Respublikasının ərazisi tarixən Azərbaycana məxsus olmayıb. Həqiqət isə belədir: Azərbaycan Respublikası Albaniya dövlətinin tarixi varisidir. Bu ərazidə xalqımızın zəngin dövlətçilik tarixi var və biz burada Azərbaycan Xalq Cümhuriyyətini yaratmışıq. Ona görə də "Azərbaycan" və "Albaniya" sözlərini bir-birindən ayırmaq əsla qəbuledilməzdir! Və bu tədqiqat göstərir ki, Azərbaycan Albaniya dövlətinin tarixində mühüm rol oynamış xristian türk boylarının, o cümlədən qıpçaq türklərinin tarixinin daha dərindən araşdırılmasına böyük ehtiyac vardır".

Yeni nəşrdə Qarabağın alban-qıpçaq tarixi ilə bağlı həm ziddiyyətli məqamlara aydınlıq gətirilir, həm də erməni saxtakarlıqlarına tutarlı cavab verilir. Nəşrə həmçinin erməni saxtakarlığını ifşa edən sənədlər və fotomateriallar daxil edilib.

Əsərdə sübut edilir ki, Qarabağın qədim alban-qıpçaq xristian abidələrinin XIX əsrdə Azərbaycan torpaqlarına köçürülüb gətirilmiş ermənilərə heç bir aidiyyəti yoxdur. Əsl həqiqət bundan ibarətdir ki, Kəlbəcərdəki Gəncəsər məbədinin kitabəsində Alban-Xaçın knyazı Həsən Cəlal "Uca və böyük Ərsak ölkəsinin hökmdarı, Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu" kimi yad edilir. Bu kitabə onun əcdadlarının erməni deyil, qədim türk boyuna mənsub olan Ərsak soyundan olmasını bir daha təsdiq edir. Təsadüfi deyil ki, XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşayan alban xristian məlikləri də I Pyotra və II Yekaterinaya yazdıqları məktublarında özlərinin erməni deyil, alban olduqlarını təsdiq etmişlər. Bu məktublar sonradan erməni alimləri tərəfindən saxtalaşdırılaraq, "Alban türkləri" - "Ağvan müsəlmanları", "Alban Ərsaki nəsli" isə "erməni rəisləri nəsli" ifadələri ilə əvəz edilib.

Kitabda qeyd edilir ki, alban-qıpçaq etnik-mədəni əlaqələri XII əsrdən etibarən daha sıx xarakter alıb. Xüsusilə də Alban-Xaçın knyazlarının onlara soykök baxımından qohum olan tanınmış qıpçaq nəsillərindən qız almaları bu əlaqələri daha da möhkəmləndirib. Maraqlıdır ki, xristian qıpçaq xatunlar Qarabağda da türklüklərini simvolizə edən xatun titulunu qoruyub saxlamışdılar. Albaniya hökmdarları isə xaqan, xan və ya işxan titulu daşımışlar. Bir çox yazılı mənbələrdə və alban-qıpçaq kilsələrinin kitabələrində bəhs edilən yer-yurd, şəxs (Mama xatun, Hurişah xatun, Arzu xatun, Vaxtanq Təkin və s.) və müxtəlif türk boylarının adları bunu bir daha təsdiq edir.

# Fidan Hüseynova informatika üzrə beynəlxalq olimpiadada gümüş medal qazandı

## "Azercell"in dəstəklədiyi azərbaycanlı şagird beynəlxalq yarışmada yüksək nəticə əldə edib

**Azərbaycanlı məktəblilər beynəlxalq bilik yarışmasında növbəti dəfə uğur qazanıblar. Bolqarıstanın Şumen şəhərində onlayn formatda təşkil edilən informatika fənni üzrə 13-cü payız turnirində Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdi Fidan Hüseynova gümüş medal əldə edib. Noyabrın 24-29-da keçirilən olimpiadaya aşağı yaş qrupu üzrə 15 ölkədən 168 məktəbli qatılıb.**

Azərbaycanlı məktəblinin bu uğurunda ölkəmizdə təhsilin inkişafına yönələn layihələri hər zaman dəstəkləyən "Azercell Telekom" MMC-nin də böyük rolu var. Belə ki, informatika fənni üzrə beynəlxalq olimpiadalara milli komandaların hazırlıq prosesi 2017-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil İnstitutu və "Azercell Telekom" MMC arasında imzalanmış əməkdaşlıq müqaviləsi əsasında həyata keçirilir. İstedadlı şagirdlər "Azercell"in dəstəyi ilə təşkil olunan xüsusi mərkəzlərdə informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlaşaraq, öz elmi potensiallarını nümayiş etdirə bilirlər.

Xatırladaq ki, 2017-ci ildən etibarən Təhsil Nazirliyi və İnformatika üzrə Milli Olimpiada komandasının məğrur tərəfdaşı "Azercell Telekom" MMC-nin dəstəyi ilə məktəblilərimiz müxtəlif miqyaslı beynəlxalq olimpiada və müsabiqələrdə uğurla çıxış edərək 1 qızıl, 7 gümüş və 18 bürünc olmaqla, ümumilikdə 26 medal əldə ediblər.

## Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi agentliyin istifadəsi üçün anbarın icarəsi xidmətinin satın alınması üzrə *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün bu sahədə ixtisaslaşmış potensial malgöndərənlər (podratçılar) dəvət olunur. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini tender komissiyasına təqdim edə bilərlər.

İştirak haqqı: 50 (əlli) AZN

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

Təşkilatın adı:

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

**VÖEN: 1603326271**

**Bank rekvizitləri:**

**"Kapital Bank" ASC-nin Mərkəzi filialı**

**H/h: AZ16AIIB38060029440419716102**

**VÖEN: 9900003611**

**Kod: 200026**

**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**

**S.W.I.F.T. AIIBAZ2X**

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün ödənilən iştirak haqqı heç bir halda geri qaytarılmır.

Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (arayışın tarixi son rübü əhatə etməsi zəruridir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış (arayışın tarixinin son rübü əhatə etməsi zəruridir);*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında aidiyyəti təşkilat(lar) tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (arayışın tarixinin son rübü əhatə etməsi zəruridir);*
- *məhkumluq barədə arayış (arayışın tarixinin son rübü əhatə etməsi zəruridir);*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *rekvizitləri;*
- *təkliflər sorğusuna dair təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat (arayışın tarixinin son rübü əhatə etməsi zəruridir);*
- *təklif zərflərin açıldığı tarixdən sonra ən azı 40 (qırx) bank günü qüvvədə olmalıdır;*
- *təklifin dəyərinin 1 (bir) faizi həcmində bank təminatı təklifin qüvvədə olma müddətindən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri və tender təklifi ilə bank təminatı sənədlərini 17 dekabr 2021-ci il saat 11:00-dək təqdim etməlidirlər. İddiaçıların təklifləri 20 dekabr 2021-ci il saat 11:00-da Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (Ünvan: AZ1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134) açılacaqdır.

Tel: (012) 404 04 01, faks: (012) 404 04 03

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əhali arasında məişət zorakılığından müdafiə vasitələrinə etimadın təşviqi (kreativ çarx)" adlı təkrar, "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı təkrar, "Şəhid ailəsinə cəmiyyətdə xüsusi diqqətin təbliği (tanıtım)" adlı təkrar, "Əlilliyi olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı təkrar, "Sağlamlıq imkanları məhdud uşaqların inkişafının təmin olunması və monitorinqi sahəsində innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqələr keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 08 dekabr 2021-ci il saat 17:00-dan gec olmayaraq Agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 09 dekabr 2021-ci il saat 11:00-da Agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Görmə üzrə əlilliyin qarşısının alınmasına yönəldilmiş maarifləndirici tədbirlər" adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 08 dekabr 2021-ci il saat 17:00-dan gec olmayaraq Agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 09 dekabr 2021-ci il saat 11:00-da Agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

***Müsabiqə komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Noutbukların satın alınması məqsədilə 30.09.2021-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən "İnfinitech" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər maddəsi üzrə malların satın alınması məqsədilə 11.08.2021-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən "Express Print" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 12 noyabr 2021-ci il tarixdə keçirilmiş "Əhali arasında məişət zorakılığından müdafiə vasitələrinə etimadın təşviqi (kreativ çarx)", "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili", "Şəhid ailəsinə cəmiyyətdə xüsusi diqqətin təbliği (tanıtım)", "Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların övladlığa götürülməsinin təşviq edilməsi (tanıtım çarx)" adlı müsabiqələr baş tutmamış hesab edilmişdir. "Şəhid ailələrinin və ya müharibə əlillərinin həyat hekayəsi" adlı müsabiqənin qalibi fiziki şəxs Həşimli Emil Elxan oğlu olmuşdur.

26 noyabr 2021-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqə baş tutmamış hesab edilmişdir.

***Müsabiqə komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən idman inventarlarının və digər avadanlıqların satın alınması məqsədilə 22.10.2021-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən **"SİMPLEX" QSC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

**"Azərişıq" ASC tərəfindən 20 oktyabr 2021-ci il** tarixdə keçirilən "Şamaxı rayonu, Sabir qəsəbəsi ərazisində yerləşən "Şirvan Aqro" MMC-yə məxsus heyvandarlıq kompleksinin xarici elektrik təchizatı işlərinin" təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə iştirak edən **"Enerji Construction" MMC** şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi Aparatın əməkdaşı Sevda Hüseynovaya həyat yoldaşı

**VAHİD TOFİQ OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində

**HEYƏT ÜZVLƏRİNİN**

həlak olmasından kədərləndiklərini bildirir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı

**NADİM NƏCƏFQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi

**RÜFƏT İZZƏT OĞLU ƏSƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi iş yoldaşları Emil Şahzadəyə anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən Azərbaycan Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması zamanı

**14 HƏRBİ QULLUQÇUNUN**

şəhid olması xəbərindən hədsiz kədərləndiyini bildirir, onlara Allahdan rəhmət diləyir, ailələrinə, doğmaları və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5591
Sifariş 2461
Qiyməti 40 qəpik